14_27 IYUl-QARA.qxd 5/2/2024 8:43 PM Page 1


# UNİKAL

№15 (2197) 3 may 2024-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az unikal-1@mail.ru




# Parlament seçkilərinin vaxtı qabağa çəkiləcək




Səh.5

## Adil Kərimli üçün tarixi abidələrlə bağlı həyəcan siqnalı

*Qazax rayonunda baş verən sökütü işi rayon sakinlərində haqlı narazılığa səbəb olub. Belə ki, rayondakı Didvan qülləsini sökub üzərində yeni "obyekt" tikirlər.Bu barədə rayonun ən aktiv "Qazaxlılar" səhifəsində paylaşım edilib. "Bu qüllə tarixi bir abidənin üzərində yerləşir. Bu tip iri daşlardan ibarət tikililər siklop tikililər adlanır. Həmin tikilinin ölkə ərazisində ikinci bir nümunəsinin olmadığı deyilir. Tarixinin də üç min olduğu düşünülür. Göründüyü kimi bu tikilinin üzərində kimsə obyekt tikib. Deyək ki, obyekti tikənin pulu var, onun tarixi irs qulağına deyil, bəs buna kim icazə verib, necə icazə verib və niyə icazə verib!?... Göründüyü kimi adamlar heç əziyyət çəkib təməl atmayıblar, elə bu siklop tikilinin üzərindən binanı qaldırıblar.*

Səh.8

## "Azərbaycan üçün 3 istiqamət daha prioritetdir"



*Milli Məclisin deputatı Vüqar Bayramov "Unikal"a müsahibə verib. O, çoxuşaqlı ailə anlayışının 5-dən 3-ə endirilməsindən, büdcəyə yenidən baxılacağı halda hansı sahələrə vəsaitin ayrılacağından, pensiya yaşının nə zaman azaldıla biləcəyindən, hansı bankların bağlana biləcəyindən və əhalinin...*

Səh.4

## İsa Qəmbər Müsavat başqanlığına yeganə namizəd olacaq



*Mayın 4-də Müsavat Partiyasının qurultayı keçiriləcək. Qurultayda partiyanın başqanı da seçiləcək. İsa Qəmbər Təşkilat Komitəsinin aprelin 29-da keçirilən iclasında partiya başqanlığına namizədliyini açıqlayıb. Natiq Mehdi və Osman Kazımov da namizədliyini irəli sürmüşdü. Artıq onların hər ikisi namizədliyini geri götürüb.*

Səh.2

## "Delimitasiya prosesi zamanı bu bölgələrdə gərginlik yaranacaq"



*Bu gün səhər saatlarında Ermənistanın Tavuş vilayətinin Kirants (Xeyrimli) kəndində Azərbaycanla sərhədin delimitasiyasına etiraz edənlər yolu bağlayıblar. Ermənistan Daxili İşlər Nazirliyinin məlumatına əsasən, həmin əraziyə çox sayda polis qüvvələri cəlb olunub. Bildirilib ki...*

Səh.4

14_27 IYUl-QARA.qxd 5/2/2024 8:45 PM Page 2



# Roza Zərgərli: "İşimi şəxsi münasibətlərimə qarışdırmıram"



***Müğənni Roza Zərgərli baş prodüseri olduğu "Kanal S" televiziyasıyla bağlı açıqlamalar edib.***

"Unikal" olay-a istinadən bildirir ki, ifaçı "Xəzər axşamı" verilişində aparıcı Mətanət Əliverdiyevanın "Küsülü olduğun bir müğənniylə çəkiliş edilməsinə icazə verirsənmi" sualını cavablandırıb.

"Uşaqlar siyahını mənə atırlar, mən deyirəm bu olar, bu olmaz. Nura Suriylə danışmıram, o da var, Sevil, Sevinclə (red. - müğənnilər Sevinc və Sevinc Səfərovalar) danışmıram, onlar da var. Mənim professional işimlə, baş prodüserliyimlə, şəxsi münasibətimi heç bir şey dəlalət etmir. Hətta Elza Seyidcahan demişdi ki, bu Rozanın kanalıdır. Demişdim ki, deyin ki, bu Rozanın kanalı deyil, Roza burada əməkdaşdır. "Mənə nə yaxşı icazə verib" demişdi. Sən sənət adamısan və redaktor səni efirə çağırmaq istəyirsə, o adamların yaradıcılığını aşağılamağa icazə vermərəm. O, mənim zəifliyim olar. O lazımdırsa, efir maraqlı keçəcəksə, deyirəm, problem deyil, olar. Mən televiziya karyerama peşəkar yanaşıram. Amma real həyatda salam da vermirəm, danışmıram, danışası da deyiləm", - deyə, o, söyləyib.

# "Belə övlad dünyaya gətirib onu da süründürməyin" - Ayan Babakişiyeva



***"Kasıb olmaq ayıb deyil, amma kasıb ölmək, bu, sənin səhvindir. Əgər yaşadığın ölkədə iş varsa, get, tap işlə. O qədər insan gördüm ki, işləmək istəmir. Belə vəziyyətdə xahiş edirəm, övlad dünyaya gətirib onu da süründürməyin".***

Bu sözləri Müğənni Ayan Babakişiyeva sosial media hesabında yazıb. O, maddi imkanı aşağı olan gəncin ailə qurması ilə bağlı yaşadığı problemlərə münasibət bildirib: "Bu videoya baxdım, şərhləri də oxudum. Çox insan bir şey yazır. Haradadır o varlılar, iş adamaları kömək etsin. Mən də öz düşüncəmi deyim sizə. Heç kimin heç nəyə və heç kimə borcu yoxdur. Ancaq heç kimin də haqqı yoxdur kiminsə həyatını məhv etsin. Bir insan düşünməlidir ki, birinin həyatına girirəmsə, ən azından onun həyatına bir qatqım olacaq? Həm mənəvi, həm maddi. Yox, bir insana xeyrin dəymirsə, ziyanın da dəyməsin. Ən azından bu qızın əvvəlki həyat tərzi, rutini nə idisə, onu et. Etmirsən, bacarmırsan? O zaman başqalarını da özünlə süründürmə. Hər şey qarşılıqlı anlayışla olmalıdır. Yox, kişi məni nə cür görmək istəyirsə, xarakterimdən, istəklərimdən keçəcəyəm deyə bir şey düşünmürəm. Hər kəsin bir xarakteri, əqidəsi var".



# Xidmətçisi Fatimənin evindən oğurluq etdi

***Rəqqasə Fatimə Fətəliyevanın evindən oğurluq edilib.***

"Unikal" xəbər verir ki, bu barədə o, "Xəbərin var?" verilişində qonaq olarkən deyib. Fatimə 4 il evində çalışan qadının ondan oğurluq etdiyini açıqlayıb: "Anam yaşlı qadındır, iş görə bilməz, mənimlə birlikdə yaşayır. Mən də hər gün qaça-qaçda olduğum üçün elə insan lazım idi ki, həm anama, həm özümə, həm də uşağıma qulluq etsin. Demək olar ki, o qadın bizim evimizdə 4 il çalışdı. İnanın mənə ki, bugünkü gün yadıma salanda şok oluram. İnsanlar necə rola girə bilirlər. Bir sözlə rol oynayırlar. 4 il o qadın rolda olub və bu müddət ərzində evimdən nələr gedib".

# Günelin formada qalma sirri



***Müğənni Günel Zeynalova sosial media hesabında ona ünvanan sualları cavablayıb.***

İfaçı illərdir formada qalma sirrini izləyiciləri ilə bölüşüb: "Doymadan masadan qalx. Az ye. Çörək yemə. Gəzintiyə çıx. Yağlı yemə".

38 yaşlı Günel xarici görünüşü ilə bağlı suala isə "Həmişə gülmək, xoşbəxt olmaq insanı gənc göstərir deyəsən" deyə, vurğulayıb.

# Telli Borçalı ilə Zülfiyyə İbadova arasında qalmaqal - "Yalan danışıb"



***Aşıq Telli Borçalı "Rəngarəng səhər" verilişində qonaq olub.***

O, aşıq Zülfiyyə İbadovanın onun haqqında səsləndirdiyi fikirlərə münasibət bildirib: "Həmin açıqlamaya baxmışam. Bəli, Zülfiyyə xanım onu deyib. Amma bir var yalan, bir də var ağ yalan. Hətta başından böyük yalan danışıb. Özü ilə də danışmışam. O qədər yalan danışıb ki, guya mən hər gün bunların restoranına getmişəm".

Əməkdar artist İlkin Əhmədov T.Borçalının bu çıxışına etiraz edib və o efirdə olarkən belə bir mövzunun işıqlandırılmasını istəməyib.

Telli isə onun bu istəyinə məhəl qoymayıb və fikirlərini belə tamamlayıb: "Mən cavabını verməliyəm. Elə bir şey olmayıb axı. Mən də indi durum Zülfiyyə haqqında elə bir zarafat edim. Sonra da gedim ki, sən Allah bağışla. Elə şey olur?".

Qeyd edək ki, Zülfiyyə daha əvvəl açıqlamasında sahibi olduğu restorandan danışaraq "Aşıq Telliyə sazımı etibar etmərəm. Həmişə gəlir bizim restorana yeyir, sonra da sazını unudub gedir. Zəng edir ki, sazım orada qalıb" deyə, bildirib.

14_27 IYUl-QARA.qxd 5/2/2024 8:46 PM Page 3



# "Bakı Prosesi" mədəniyyətlərarası dialoqu təşviq edir - Əhliman Əmiraslanov



***"Ölkəmizdə "Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçirilir. Bildiyimiz kimi, Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu dövlətimizin başçısı cənab İlham Əliyevin təşəbbüsü ilə reallaşan "Bakı Prosesi"nin tərkib hissəsidir".***

"Unikal" xəbər verir ki, bu fikirləri Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik Əhliman Əmiraslanov səsləndirib. O deyib ki, mənəvi-mədəni dəyərlərin təbliği baxımından böyük əhəmiyyət daşıyan bu təşəbbüs mədəniyyətlərarası dialoq sahəsində dünyada yeganə, çox mühüm və nüfuzlu beynəlxalq platformadır: "Forumda 110 ölkənin nümayəndəsi iştirak edib. "Bakı Prosesi" mədəniyyətlərarası dialoqu təşviq edir. Azərbaycanın təşəbbüsü ziyalıları, siyasətçiləri, qərar qəbul edənləri, media nümayəndələrini, vətəndaş cəmiyyətinin nümayəndələrini, vətəndaş cəmiyyətini bir araya gətirir. Dünyada əfsuslar olsun ki, yeni münaqişələri, yeni qeyri-sabitlik məkanlarını və yeni təhdidləri görürük. Məsələlərin həllində Azərbaycanın öz təcrübəsi var. 1 may tarixində "Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimində çıxışı zamanı cənab Prezident İlham Əliyev bir sıra vacib məqamlara toxundu, xüsusən multikulturalizmin əhəmiyyətindən söz açdı, Azərbaycanın təcrübəsini bölüşdü. Qeyd etdi ki, "Əsrlər boyu Azərbaycan mədəniyyətlərin qovuşduğu məkan olub. Bizim coğrafi mövqeyimiz, Şərq ilə Qərb arasında yerləşməyimiz bu tendensiyaya imkan yaradıb.

Çoxmədəniyyətli və böyük etnik müxtəlifliyə malik olan Azərbaycan cəmiyyəti əsrlər boyu ən mühüm dəyərləri - tolerantlığı, qarşılıqlı hörməti, dostluq və tərəfdaşlıq kimi dəyərləri qoruyub. Azərbaycan daxilində hər zaman müsbət mədəniyyətlərarası dialoq olub. Azərbaycan xalqı bunu gündəlik həyatında nümayiş etdirib. Multikulturalizm Azərbaycan vətəndaşları üçün həyat tərzidir". Dövlətimizin başçısı çıxışında Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyindən də bəhs etdi. Əminliklə deyə bilərik, eləcə də bu, beynəlxalq ictimaiyyət tərəfindən də etiraf olunur ki, Hərəkatın inkişafı, ən parlaq dövrü, təsir imkanlarının artması, söz sahibinə çevrilməsi məhz Azərbaycanın sədrliyi dövründə olub. İrəli sürdüyü təşəbbüslər, gördüyü işlərlə Azərbaycan bu təsisata yeni imic qazandırdı, məsələlərə haqlı yanaşma tərzi ortaya qoydu. Quruma sədrliyimiz ağır bir dönəmə təsadüf etdi, xəstəlik planetin hər yerində tüğyan edirdi, böyük fəsadlara yol açırdı. Belə mürəkkəb şəraitdə Azərbaycan sədr olaraq məsuliyyətlə davrandı, vacib və səmərəli təşəbbüslərlə çıxış etdi, xüsusilə dünyanı ədalətə səsləyərək peyvənd millətçiliyinə qarşı ləyaqətlə mübarizə apardı. Bu gün Azərbaycan dövləti, xüsusən də onun Prezidenti cənab İlham Əliyev dünyada dialoqa, qarşılıqlı anlaşmaya, sülh və təhlükəsizliyə nə qədər misilsiz töhfələr verir.

Mədəni irsin qorunması həll edilməli olan problemlərdən biri olaraq qalır. Bu baxımdan münaqişələr və müharibələr hələ də əsas təhlükədir. Parlamentlər mədəni irsin qorunmasının hüquqi və siyasi çərçivəsinin formalaşmasında, onun yaşadılaraq gələcək nəsillərə ötürülməsində mühüm və məxsusi rol oynayır. VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində təşkil edilən "Mədəni irsin mühafizəsində qanunvericiliyin rolu: uğurlu təcrübələr" mövzusunda parlamentlərarası konfransda Azərbaycan Milli Məclisinin sədri xanım Sahibə Qafarovanın da qeyd etdiyi kimi "İşğal olunmuş ərazilərin mədəni irsinə hörmət edilməsi və qorunması üzrə beynəlxalq hüququn öhdəlikləri Ermənistan tərəfindən 30 il ərzində ciddi şəkildə pozulub. İşğaldan azad edilmiş ərazilərimizdə hazırda genişmiqyaslı bərpa işləri aparılır. Bu işlərin əsas prioritetlərindən biri də həmin ərazilərdə mədəni irsin bərpası və qorunmasıdır. Həmin ərazilərdə əsaslı bərpa və quruculuq işləri aparılır, tarixi və dini abidələrimiz bərpa olunur və ya yeniləri inşa edilir". Azərbaycanın mədəni irsin qorunması sahəsində fəaliyyəti təkcə milli səviyyə ilə məhdudlaşmır. Müxtəlif ölkələrdə bəşəriyyətin ortaq sərvəti sayılan mədəni irsin bərpası və qorunması üçün ardıcıl addımlar atılır. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu bu işə böyük töhfə verir. Xüsusilə qeyd olunmalıdır ki, Qərbi Azərbaycan torpaqlarında mədəni irs abidələri hələ də vandalizmə məruz qalır. Ancaq təssüf ki, həmişə olduğu kimi yenə də beynəlxalq təşkilatlar bu məsələyə münasibət bildirmək istəmirlər. Mədəni irsin qorunması təkcə beynəlxalq humanitar hüququn deyil, həm də Ümumdünya İnsan Hüquqları Bəyannaməsində qəbul edilən əsas hüquqlarının təmin edilməsindən irəli gələn tələbdir. Bu baxımdan, Ermənistan oradan qovulmuş azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə geri qayıtmasına şərait yaratmalı və dağıtdığı Azərbaycan mədəni irsini bərpa etməlidir".

***Hüseyn***

# Adil Kərimli üçün tarixi abidələrlə bağlı həyəcan siqnalı

## Əbülfəs Qarayevin və Anar Kərimovun nazir olduğu vaxtlarda çoxəsrlik mədəni irsimizə qarşı hökm sürən laqeyd münasibət dəyişəcəkmi?

***Qazax rayonunda baş verən söküntü işi rayon sakinlərində haqlı narazılığa səbəb olub. Belə ki, rayondakı Didvan qülləsini söküb üzərində yeni "obyekt" tikirlər. Bu barədə rayonun ən aktiv "Qazaxlılar" səhifəsində paylaşım edilib. "Bu qüllə tarixi bir abidənin üzərində yerləşir. Bu tip iri daşlardan ibarət tikililər siklop tikililər adlanır. Həmin tikilinin ölkə ərazisində ikinci bir nümunəsinin olmadığı deyilir. Tarixinin də üç min olduğu düşünülür. Göründüyü kimi bu tikilinin üzərində kimsə obyekt tikib. Deyək ki, obyekti tikənin pulu var, onun tarixi irs qulağına deyil, bəs buna kim icazə verib, necə icazə verib və niyə icazə verib!?... Göründüyü kimi adamlar heç əziyyət çəkib təməl atmayıblar, elə bu siklop tikilinin üzərindən binanı qaldırıblar.***

Abidəni dağıt, obyekt tik, əsas odur pul gəlsin" - deyə səhifənin paylaşımında qeyd edilib.

32gun.az-ın əldə etdiyi məlumata görə isə obyekti tikdirən şəxs Bakıda yaşayan qazaxlı iş adamlarından biridir.

Sosial şəbəkələrdə və mediada məlum məsələ işıqlandırıldıqdan sonra nə yerli icra hakimiyyəti, nə də digər aidiyyatı qurumlar fakta münasibət bildirməyiblər. Xüsusilə Mədəniyyət Nazirliyi ilə onun tabeliyindəki Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin mövzu ətrafında susqunluğu təəccüb (eyni zamanda təəssüf!) doğurur!

Yeri gəlmişkən, adıçəkilən idarəyə ötən il yeni rəis təyin edilib. Bu, Səbinə Hacıyevadır. O, Azərbaycan Memarlıq və İnşaat Universitetinin professoru və memarlıq konstruksiyaları və abidələrin bərpası kafedrasının müdiri olub. Beynəlxalq Memarlıq Akademiyasının Moskva bölməsinin müxbir üzvüdür.

Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin keçmiş rəisi Zakir Sultanov isə Dövlət Təhlükəsizlik Xidmətinin (DTX) Mədəniyyət Nazirliyində keçirdiyi əməliyyat zamanı saxlanılmışdı. O, Azərbaycan xalqının çoxəsrlik mədəni irsi və sərvəti olan tarixi abidələrin və mədəniyyət nümunələrinin qorunması, bərpası, rekonstruksiyası və mühafizəsi üçün zəruri işlərin görülməsi məqsədilə dövlət büdcəsindən ayrılan vəsaitləri mənimsəməkdə suçlanırdı. Bundan başqa, Zakir Sultanovun xidməti və yaşadığı ünvanlara keçirilmiş baxış zamanı Mədəniyyət Nazirliyinin vəzifəli şəxslərinin qəbul etdikləri pul vəsaitlərinin məbləğlərinə dair müxtəlif qeydlər, ayrı-ayrı valyutalarda saxlanılan pul vəsaitləri, iş üzrə əhəmiyyət kəsb edən digər sənədlər və maddi sübutlar aşkar edilərək götürülmüşdü.

Z.Sultanovun həbsi həmin vaxt sürpriz kimi qarşılanmamışdı. Çünki onun rəisi olduğu qurumun çoxəsrlik mədəni irsimizə və sərvətimizə laqeyd münasibəti sirr deyildi, çox sayda tarixi abidənin mühafizəsi, rekonstruksiyası, bərpası Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəhbərliyi üçün sadəcə yeyinti, korrupsiya mənbəyi idi. Sonluq bəllidir.

Ümid edək ki, adıçəkilən qurumun indiki məsul şəxsləri yaxın keçmişin acı təcrübəsindən lazımınca dərs çıxaracaq, tarixi abidələrimizi kimlərinsə şəxsi maraqlarının, biznes mənafelərinin qurbanına çevrilməsini sakitcə seyr etməklə kifayətlənməyəcəklər.



Yeri gəlmişkən, bu yaxınlarda Balakəndə 2 min ilə yaxın yaşı olan tarixi abidə ilə bağlı da həyəcan siqnalı çalınmışdı. "Erkən-orta (III - V) əsrlərə aid edilən hətta daha da qədim tarixin qalıqlarının üzə çıxarıldığı və bir neçə mədəni dövrü özündə əks etdirən bu maddi-mədəniyyət nümunəsi hazırda baxımsızlıqdan dağılmaq üzrədir. Təəssüf doğuran digər məqam isə abidə üzərindəki tanıdıcı lövhədə yanlış məlumatların qeyd olunmasıdır" deyə "Bizimmedia" yazmışdı. Bir sözlə, Tülü kəndində yerləşən və Qafqaz Albaniyasına aid olan tarixi abidənin məhv olmaq təhlükəsi ilə üzləşdiyi açıq şəkildə dilə gətirilmişdi. Tədqiqatçı alim Akif Məmmədli mövzu ilə bağlı belə demişdi: "Çox təəssüf ki, unikal bir tarixi abidə bu gün göz önündə məhv olmaqdadır. Mən bir tədqiqatçı olaraq çox istərdim ki, abidənin heç olmasa, qorunması üçün öncə rekonsturuksiya, daha sonra isə onun restavrasiya olunmasına cəhd göstərilsin".

Eyni zamanda onu da xatırladaq ki, hələ Əbülfəs Qarayev və Anar Kərimovun mədəniyyət naziri olduğu dönəmdə tarixi abidələrə qarşı laqeyd münasibət tez-tez gündəmə gəlirdi. İndi isə belə qənaət yaranır ki, dəyişən heç nə yoxdur - hazırkı nazir Adil Kərimlinin zamanında da oxşar vəziyyət hökm sürür. Bu isə yalnız təəssüf doğura bilər, çünki keçmişdəki xətalardan nəticə çıxarmamaq nəinki həmin xətaların təkrarlanmasına yol açır, eyni zamanda yüksək postlardakı dəyişikliklərin effektivliyini şübhə altında qoyur, kadr islahatlarının ruhunu zədələyir.

***Sənan Mirzə***

14_27 IYUl-QARA.qxd 5/2/2024 8:47 PM Page 4



# Azərbaycan-Ermənistan XİN rəhbərlərinin Almatı görüşü nə vəd edir?

## Siyasi şərhçi: "Gözlənilən görüş baş tutsa, əldə edilən sülh düsturları üzrə yeniliklər Azərbaycan və Ermənistan rəhbərliyinə təqdim ediləcək"

***Azərbaycan xarici işlər naziri Ceyhun Bayramovla ermənistanlı həmkarı Ararat Mirzoyanın Qazaxıstanın Almatı şəhərində görüşəcəyi gözlənilir. Astananın görüşdəki təşəbbüskarlığı böyük güc rəqabətinin gücləndiyi vaxtda Qazaxıstanın Rusiya, ABŞ və Çinlə getdikcə həlledici xarakter alan münasibətləri fonunda baş tutur.***

Bu barədə fikirlərini"Unikal"la bölüşən siyasi şərhçi Aqşin Kərimov deyib ki, görüş baş tutsa, Azərbaycan-Ermənistan münasibətlərinə təsir etmək istəyən ABŞ ilə Rusiya bunu az qala özünün "kölgə vasitəçiliyi" kimi qələmə verməkdən çəkinməyəcək. Onun sözlərinə görə, eyni zamanda, Qazaxıstanın Bakı-İrəvan münasibətləri üzrə dinamikası Çinin Mərkəzi Asiyada göstərəcəyi şücaəti üçün məqamlara da təkan verə bilər: "Bu baxımdan ki, üç güc mərkəzi arasındakı böyüyən rəqabətin Cənubi Qafqazdan Mərkəzi Asiyaya qədər uzanan (Zəngəzur dəhlizi layihəsinin mənzərəsində) əlaqələri təbii ki, Bakı-İrəvan gündəliyinə də təsirsiz ötüşməyəcək. Qısası, Azərbaycanla Ermənistan ikitərəfli qaydada danışıqlarda həvəslərini göstərsələr də, bunun kənar geosiyasi təsirlərə açıq qalmaq ehtimalı mövcuddur. Buna baxmayaraq, Bakı-İrəvan proqramının Almatı səhnəsi ikitərəfli razılıqların çərçivəsini genişləndirməyə imkan verən fürsətləri qiymətləndirir. Bundan əvvəl Ermənistan Qazaxın nəzarətində olan 7 kəndindən 4-nün Azərbaycana qaytarılmasına razılıq vermişdi. Almatı görüşündən sonra isə sülh müqaviləsinin mətninin hazırlanması və delimitasiya mövzusunun paralel formada inkişaf edəcəyini söyləyə bilərik. Üstəlik, bu görüş Cənubi Qafqazda təhlükəsizlik şəraitini aqressiv şəkildə dəyişməyə çalışanlara qarşı direniş nöqtəsi kimi bir nəticə hasil etməlidir. Azərbaycan buna çalışır, maksimal şəkildə İrəvanı ikitərəfli rejimdə razılıqlara dəvət edir. İrəvanda müəyyən siqnallar müsbətdir, lakin zəmanət tapmaq çətindir ki, Ermənistan gələcəkdə regionu beynəlxalq oyunçuların qarşıdurma sığınacağına çevirmək xəttinə getməyəcək".



Müsahibimiz onu da nəzərə çatdırıb ki, Almatı danışıqlarında Azərbaycan tərəfi yüksələn manevr imkanları fonunda Ermənistandan həmin zəmanətləri tələb edə bilər: "XİN başçılarının gözlənilən görüşü baş tutsa, əldə edilən sülh düsturları üzrə yeniliklər Azərbaycan və Ermənistan rəhbərliyinə təqdim ediləcək. Təqdim olunan tezislər sülh üzrə bundan sonrakı diqqətin necə ayrılmasını müəyyənləşdirəcək və Azərbaycan-Ermənistan liderlərinin növbəti görüşünə hazırlıq məqsədlərini özündə ehtiva edəcək. Azərbaycan və Ermənistan baş diplomatlarının Qazaxıstan görüşü Cənubi Qafqazla Mərkəzi Asiya arasında daha sıx əlaqə yaratmaq baxımından kritik məqama təsadüf edir. Güc episentrləri əldə oluna biləcək nəticələrə müdaxilə etmək potensiallarını bir daha nümayiş etdirə bilərlər. Lakin onların neytrallaşması daha çox İrəvanın sülh sükanını necə əlində saxlamasından asılı olacaq".

***Seymur Əli***

# Sülhə mane olan əsas məsələlər həll edilib, yoxsa...

## Politoloq: "Anklav, eksklavların taleyi, delimitasiyanın yekunlaşması, kommunikasiyaların açılması kimi məsələlər zamanla həll edilə bilər"

***Mayın 1-də Bakıda "Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu öz işinə başlayıb. Forum Azərbaycan hökumətinin təşkilatçılığı, UNESCO-nun, BMT-nin Sivilizasiyalar Alyansının, Dünya Turizm Təşkilatı və ICESCO-nun tərəfdaşlığı ilə keçirilir. Tədbirdə 100-dən çox ölkəni təmsil edən 700 mötəbər qonaq, 30-dan çox ölkədən dini lider iştirak edir.***

Azərbaycan Prezidenti İlham Əliyev "Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimində çıxış edib. Ölkə başçısının çıxışı bir çox baxımdan diqqət çəkib. Birincisi, Prezident çıxışı zamanı deyib ki, sərhədlərin delimitasiyası başlayıb, hətta işlər aparılır: "Mən burada çıxış etdiyim zaman bu iş gedir. Buna iki ölkə tərəfindən hər hansı vasitəçi olmadan nail olunub. Bu, bir daha göstərir, bizə vasitəçi lazım deyil, xüsusən də o insanlar ki, məhz öz məqsədlərini güdürlər. Onlar yardım etmək istəmir, onlar bizim bölgəyə siyasi və iqtisadi maraqları naminə müdaxilə etmək istəyirlər. Onlar bu alova yenidən odun atmaq istəyirlər".

Bu barədə fikirlərini "Unikal"la bölüşən politoloq Turan Rzayev deyib ki, Ermənistanla Azərbaycan arasında münaqişənin 30 ildən çox davam etməsinin ən böyük səbəbi vasitəçilər əsasında aparılan danışıqlardır. Onun fikrincə, Fransa, ABŞ, Rusiyanın uzlaşmayan maraqları, status-kvonun dəyişməsində maraqlı olmamaları və digər faktorlar səbəbindən proses dalana dirəndi: "Azərbaycan sona qədər diplomatik fəaliyyəti davam etdirib sülhə sadiq olduğunu bildirsə də, müharibə qaçılmaz oldu. Ölkə başçısının da dediyi kimi, sülh müharibə yolu ilə əldə edildi. Bu gün regionda 30 il ərzində əldə edilməsi mümkün olmayan bir sabitlik və konstruktiv danışıqlar mövcuddur. Ermənistanla Azərbaycan arasında hazırda real sülh danışıqları gedir, lakin prosesə mane olmaq istəyən qüvvələr də var. Onlar illər ərzində münaqişənin uzanmasında maraqlı olan qüvvələrdir. Prezident qeyd edib ki, "Biz Cənubi Qafqazda bunun baş verməsinə imkan verməyəcəyik. Otuz illik toqquşmadan sonra Ermənistan da aydın şəkildə anlayır ki, biz Cənubi Qafqazda sülh istəyirik. Sülh bu bölgədə yalnız Azərbaycan ilə Ermənistan arasında normallaşma vasitəsilə əldə oluna bilər".

Rəsmi Bakı ən qısa zamanda sülhün əldə edilməsini istəyir. Hətta Prezidentin dediyi kimi, COP29-a qədər sülh müqaviləsi imzalana bilər. Təbii ki, prosesin uzanması mümkündür, amma danışıqlar bu tempdə davam edərsə, sülh yaxındır. İkincisi, Prezident çıxışı zamanı müharibədən sonra regionda yaranmış vəziyyətə də toxunub. Ölkə başçısı Ermənistana sülh sazişi ilə bağlı danışıqlara başlamaq təklifi irəli sürdüyünü, hətta baza prinsipləri və sülh sazişi layihəsini hazırladığını vurğulayıb".



Politoloq onu da vurğulayıb ki, ölkə başçısının dediklərini ilkin sülh sənədinin hazırlandığı və imzalana biləcəyi kimi başa düşmək olar. Prinsipial məsələlərə dair iki ölkə arasında razılıqlar var. Ən əsası delimitasiya prosesi davam edir və sərhəd komissiyalarının görüşü davamlı hal alıb. Sülhə mane olan əsas məsələlər həll edilib. Anklav, eksklavların taleyi, delimitasiyanın yekunlaşması, kommunikasiyaların açılması kimi məsələlər zamanla həll edilə bilər. Əsas məsələ ilkin sülh müqaviləsinin imzalanmasıdır. Proses ona doğru gedir".

***T.Əliyev***



# Müxalifət kənardan aldığı dəstəklə Paşinyanı devirərsə...

## Fuad Abbasov: "Ermənistan ərazi iddialarından, qondarma soyqırım məsələsindən birdəfəlik imtina etməlidir"

***"Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında Qazaxıstanda keçiriləcək görüş çox vacibdir".***

"Unikal" xəbər verir ki, bunu bakıvaxtı.az-a açıqlamasında siyasi şərhçi Fuad Abbasov deyib. Ekspert bildirib ki, Qazaxıstanda 1991-ci ildə qəbul edilmiş Almatı bəyannaməsinin prinsipləri sülh müqaviləsində və sərhədlərin müəyyənləşməsində əsas rolunu oynamaqdadır:

"Azərbaycan və Ermənistan rəhbərliyi, o cümlədən digər rəsmilər bir neçə məkanda görüşlər keçiriblər. Vaşinqton, Brüssel və Moskva formatları gündəmdə olub. Təbii ki, Qazaxıstan digər platformalardan fərqlənir. Əgər Almatıda tərəflərin görüşü baş tutarsa, müəyyən nəticələri olarsa, delimitasiya və demarkasiya prosesi dərinləşərsə, geriyə sadəcə sülh sazişinin imzalanması məsələsi qalacaq. Amma onu da nəzərə alaq ki, Ermənistan tərəfi mütləq konstitusiya dəyişikliyinə getməlidir. Ərazi iddialarından, qondarma soyqırım məsələsindən və "Miatsum" anlayışından birdəfəlik, rəsmən imtina etməlidir. Düzdür, hazırda Ermənistan baş naziri Nikol Paşinyan hökumətinə qarşı etiraz aksiyaları keçirilir. Amma bunlar elə miqyasda deyil ki, Paşinyanın atacağı addımlara əngəl törətsin".

F.Abbasov vurğulayıb ki, istənilən halda konstitusiya dəyişikliyi və referendum Paşinyan üçün ciddi sınaq olacaq. Onun sözlərinə görə, Paşinyan bu sınaqdan çıxmağı bacararsa, erməni ictimaiyyətini arxasında apara bilərsə, nəhayət Azərbaycan və Türkiyə ilə normal münasibətlər qurarsa, o zaman Ermənistanın baş naziri kimi böyük bir tarixi missiyanı yerinə yetirmiş olacaq: "Ancaq müxalifət kənardan aldığı dəstəklə Paşinyanı devirməyə nail olarsa, sülh prosesi dalana dirənəcək və sazişin imzalanması qeyri-mümkün hala gələcək".

Qeyd edək ki, Ermənistan və Azərbaycan Almatıda danışıqlarda iştirak edəcəyini təsdiqləyib. Qazaxıstan XİN-in açıqlamasında deyilib ki, Ermənistan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ani Badalyan Mirzoyan və Bayramov arasında Almatıda görüş barədə razılığın olduğunu təsdiqləyib. İki ölkə arasında danışıqların Qazaxıstanda aparılması ideyası Ermənistan və Azərbaycana son səfərləri zamanı Qazaxıstan prezidenti Kasım-Jomart Tokayev tərəfindən irəli sürülüb.

# İlham Əliyev Azərbaycanın pravoslav xristian icmasını təbrik edib



***Prezident İlham Əliyev Azərbaycanın pravoslav xristian icmasına təbrik məktubu ünvanlayıb.***

"Unikal" xəbər verir ki, məktubda deyilir: "Hörmətli həmvətənlər! Müqəddəs Pasxa bayramı münasibətilə Azərbaycanın bütün xristian icmasını ürəkdən təbrik edir, ən səmimi arzu və diləklərimi yetirirəm.

Qədim dövlətçilik tarixinə malik olan Azərbaycanda ayrı-ayrı xalqların və etiqadların mənsubları yüz illərdir ki, sülh və əmin-amanlıq şəraitində yaşayır, heç bir ayrı-seçkiliyə məruz qalmadan dil və mədəniyyətini, etnik-mədəni özünəməxsusluğunu qoruyub saxlayırlar. Xalqımıza xas zəngin tolerantlıq ənənələrinin, multikultural dəyərlərin təbliği və təşviqi ölkəmizdə həyata keçirilən dövlət siyasətinin prioritet istiqamətlərindən biridir.

Bu gün Azərbaycan Respublikası müxtəlif dinlər və etiqadlar arasında qarşılıqlı hörmət və etimad mühitinin, demokratik birgəyaşayış prinsiplərinin mövcud olduğu unikal bir məkandır və dünyada sivilizasiyalararası münasibətlərin inkişafına mühüm töhfələr verir.

Cəmiyyətimizdə dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, hər kəsin mədəni özünüifadəsi üçün bərabər imkanlar yaradılmışdır. Təqdirəlayiq haldır ki, ölkəmizin bütün etnik və dini azlıqları, o cümlədən xristian vətəndaşlarımız ictimai-siyasi həyatın bütün sahələrində yaxından iştirak edir, Azərbaycanın tərəqqisi və çiçəklənməsi naminə vətəndaşlıq borcunu layiqincə yetirirlər.

Əziz həmvətənlər!

Dirçəlişin, yeniliyin, mərhəmət və xeyirxahlıq duyğularının rəmzi olan Pasxa bayramı münasibətilə bir daha hər birinizə cansağlığı, xoşbəxtlik, ailələrinizə firavanlıq arzulayıram. Bayramınız mübarək olsun!".

# Prezidentdən Heydər Əsədovla bağlı sərəncam

***Heydər Xanış oğlu Əsədov Azərbaycan Dövlət Dəniz Akademiyasının rektoru təyin edilib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Prezident İlham Əliyev sərəncam imzalayıb.

Xatırladaq ki, Heydər Əsədov 2013-cü ilin oktyabrın 22-dən 2018-ci ilin aprelin 21-dək Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri vəzifəsində işləyib.

# Anar Ələkbərov Rusiyanın mədəniyyət naziri ilə görüşdü

***Bakıda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirak edən Rusiya Federasiyasının mədəniyyət naziri Olqa Lyubimova Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov ilə görüşüb.***

"Unikal" xəbər verir ki, görüşdə Azərbaycanın Rusiya ilə müxtəlif platformalarda əməkdaşlığı müzakirə edilib. Bir çox sahələrdə, o cümlədən humanitar istiqamətdə sıx əlaqələrin qurulduğu qeyd olunub.

Azərbaycanda 300-dən çox orta məktəbdə təhsilin rus dilində həyata keçirildiyi, Bakı Slavyan Universitetinin, Səməd Vurğun adına Azərbaycan Dövlət Akademik Rus Dram Teatrının fəaliyyət göstərdiyi bildirilib. O cümlədən M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin və İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filiallarının fəaliyyəti vurğulanıb.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun 20 illik fəaliyyəti dövründə Azərbaycanda və ölkə hüdudlarından kənarda, həmçinin Rusiya Federasiyasında humanitar sahədə həyata keçirdiyi uğurlu layihələr xatırlanıb. Moskvanın Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində Heydər Əliyev Fondunun dəstəyi ilə əsaslı bərpa olunan "Azərbaycan" pavilyonunun fəaliyyəti, Fondun Rusiya nümayəndəliyinin ikitərəfli əlaqələrin daha da genişləndirilməsi istiqamətində gördüyü işlər qeyd edilib.

Heydər Əliyev Fondunun təşkilatçılığı ilə may ayında Moskvada "Helikon-opera"da konsert proqramının təqdim olunacağı bildirilib.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5"
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

# Parlament seçkilərinin vaxtı qabağa çəkiləcək

## Məzahir Pənahov: "Vaxtımız çox azdır və işimiz çoxdur"

***"Konstitusiyanın tələbinə görə parlament seçkiləri noyabrın əvvəlidir".***



"Unikal" xəbər verir ki, bu fikirləri Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov bildirib.

"Lakin hər yerdə də səsləndirilir ki, ola bilsin noyabrda olacaq COP29 tədbirinə görə seçkilər önə çəkilə bilər. Ona görə vaxtımız çox azdır və işimiz çoxdur. İndidən maarifləndirmə işlərinə başlamalıyıq. Hesab edirəm ki, bununla bağlı zəmin var. Maksimum çalışmalıyıq ki, dairələrdə hər hansı problem olmasın", - MSK sədri əlavə edib.

MSK sədri bildirib ki, yanvar ayından başlayaraq seçici siyahılarının dəqiqləşdirilməsi də həyata keçirilir: "Parlament seçkiləri ilə əlaqədar seçici siyahılarının dəqiqləşdirilməsi prosesi sürətləndirilməlidir".

# Bu şəxslərə 2000 manat birdəfəlik yardım veriləcək

***Azərbaycan Prezidenti İlham Əliyev 1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında sərəncam imzalayıb.***

"Unikal"ın məlumatına görə, dövət başçısının imzaladığı sənəddə qeyd edilib ki, 1941-1945-ci illər İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə 2000 manat məbləğində, İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, İkinci Dünya müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına 1000 manat məbləğində birdəfəlik maddi yardım verilsin.

Sərəncamın icrası üçün Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 3 milyon manat vəsait ayrılacaq.



Prezident İlham Əliyevin yeni Sərəncamı İkinci Dünya müharibəsi iştirakçıları və sənəddə nəzərdə tutulan digər şəxslərdən ibarət 3000-ə yaxın şəxsə şamil olunacaq. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən birdəfəlik maddi yardımlar İkinci Dünya müharibəsi iştirakçılarının və digər müvafiq şəxslərin bank hesablarına köçürüləcək.

# VI Mədəniyyətlərarası Dialoq Forumunun bağlanış mərasimi keçirilib

***Bakıda VI Mədəniyyətlərarası Dialoq Forumunun bağlanış mərasimi keçirilib.***

Mərasimdə mədəniyyət naziri Adil Kərimli, ISESCO-nun baş direktoru Səlim M. əl-Malik, BMT Turizm təşkilatının baş icraçı direktoru Zoritsa Uroşevi və BMTSA-nın direktoru Nihal Saad çıxış edib.

Mədəniyyət naziri A.Kərimli bildirib ki, bu forum əməkdaşlığın inkişafına töhfə verəcək. "Biz bu forum vasitəsilə dünyaya bir mesaj çatdırmaq istədik. Mesaj ondan ibarət idi ki, mədəniyyətlərarası dialoqla biz bir çox məsələlərin həllinə töhfə verə bilərik",- deyə nazir bildirib.

ISESCO-nun baş direktoru



Səlim M. əl-Malik vurğulayıb ki, mədəniyyətlərarası dialoq sülh və əməkdaşlıq üçün çox əhəmiyyətlidir. "Belə bir mürəkkəb dünyada əməkdaşlıq və dialoq mühüm rol oynayır. İSESCO bundan sonra da öz yumşaq gücündən istifadə edərək sözügedən dialoqa töhfə verəcək.

Azərbaycana belə bir əhəmiyyətli foruma uğurla ev sahibliyi etdiyi üçün təşəkkür edirəm",- deyə o əlavə edib.

BMT Turizm təşkilatının baş icraçı direktoru Zoritsa Uroşevi həmçinin bildirib ki, Azərbaycan hər zaman mühim tədbirlərə ev sahibliyi edib. "Mədəniyyətlərarası dialoq forumu aparıcı bir platformadır. Biz burada bir sıra çağırışların, problemlərin həll yollarını müzakirə etmək imkanı tapdıq. Turizm bütün sahələr üzrə ən əhəmiyyətlisidir. Çünki bu sektor bizim gündəlik həyatımıza təsir edir. Ümid edirəm ki, burada müzakirə olunanları praktikada göstərə bilərik",- deyə o bildirib.

# İsa Qəmbər Müsavat başqanlığına yeganə namizəd olacaq

***Mayın 4-də Müsavat Partiyasının qurultayı keçiriləcək. Qurultayda partiyanın başqanı da seçiləcək. İsa Qəmbər Təşkilat Komitəsinin aprelin 29-da keçirilən iclasında partiya başqanlığına namizədliyini açıqlayıb.***

Natiq Mehdi və Osman Kazımov da namizədliyini irəli sürmüşdü. Artıq onların hər ikisi namizədliyini geri götürüb. Beləliklə, İsa Qəmbər Müsavat Partiyasının başqanı postuna yeganə namizəd olacaq.



# İlham Əliyev BMT Baş katibinin xüsusi müşavirini qəbul etdi



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 2-də BMT Baş katibinin iqlim fəaliyyəti və ədalətli keçid üzrə xüsusi müşaviri Selvin Çarlz Hartı qəbul edib.***

"Unikal" xəbər verir ki, Selvin Çarlz Hart BMT-nin Baş katibi Antonio Quterreşin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Antonio Quterreşə çatdırmağı xahiş etdi.

Qonaq BMT-nin Baş katibinin Azərbaycanda keçiriləcək COP29 tədbirində iştirak etmək niyyətində olduğunu bildirdi.

Azərbaycan Prezidenti BMT Baş katibini COP29-da görməkdən məmnun olacağını dedi. Dövlətimizin başçısı vurğuladı ki, COP29-a hazırlıq məqsədilə bütün lazımi və zəruri işlər plana uyğun davam etdirilir. Azərbaycan beynəlxalq ictimaiyyətlə və təsisatlarla COP29-un substantiv məsələləri üzrə danışıqlar və məsləhətləşmələr aparır.

Prezident İlham Əliyev bildirdi ki, Azərbaycanın məqsədi dünya ölkələri arasında iqlim dəyişmələri mövzusunda həmrəyliyin və birgə fəaliyyətin gücləndirilməsidir. Bütün dünya ölkələri, o cümlədən Azərbaycan iqlim dəyişmələrinin mənfi təsirlərinə və fəsadlarına məruz qalıb. Belə ki, artıq son yeddi ildə Azərbaycanda quraqlıq müşahidə olunub, yağıntının miqdarı əhəmiyyətli dərəcədə azalıb. Bu il yağıntının miqdarının artması prosesi baş versə də, bütövlükdə Azərbaycan bundan əziyyət çəkir. Azərbaycan Prezidenti vurğuladı ki, Xəzər dənizinin suyunun çəkilməsi prosesi müşahidə olunur və bu da ciddi narahatlıq doğuran məqamdır.

Dövlətimizin başçısı bildirdi ki, Azərbaycan müsbət nümunəsi və yaşıl gündəliyi ilə iqlim dəyişmələri proseslərinə və iqlim fəaliyyətinə öz töhfəsini verir. Belə ki, neft və qaz ixrac edən Azərbaycan bu sahədə əldə olunmuş gəlirləri ölkənin inkişafına sərf etməklə uğurlu inkişaf modeli nümayiş etdirir. Prezident İlham Əliyev vurğuladı ki, Azərbaycanda yaşıl keçid qarşıya hədəf kimi qoyulub və ölkəmizdə beynəlxalq tərəfdaşların da iştirakı ilə ciddi yaşıl enerji ixrac potensialı yaradılır.

Prezident İlham Əliyev qeyd etdi ki, bu günlərdə Azərbaycan, Özbəkistan və Qazaxıstanın Energetika və İqtisadiyyat nazirliklərinin birgə iştirakı ilə Mərkəzi Asiyanın bərpaolunan enerji resurslarının Xəzərin dibi ilə Azərbaycana ötürülməsi və buradan da Avropaya ixrac edilməsi barədə yeni layihənin əsası qoyulub.

Qonaq vurğuladı ki, COP29 prosesində Azərbaycana zəruri dəstək vermək üçün BMT ailəsi Baş katib tərəfindən səfərbər edilib və xüsusi işçi qrup yaradılıb. Bu yaxınlarda BMT-nin İnkişaf Proqramının (UNDP) nümayəndə heyətinin Azərbaycana səfər edəcəyini deyən Selvin Çarlz Hart ölkəmizin təbii resurslardan əldə etdiyi gəlirləri effektiv şəkildə idarə etməsinin və sosial-iqtisadi inkişafa sərf etməsinin uğurlu nümunə olduğunu vurğuladı. O qeyd etdi ki, Azərbaycan, eyni zamanda, bu sahədə əldə etdiyi gəlirləri yaşıl enerji gündəliyinə də sərf edərək çox mühüm nümunə yaradır. Qonaq bu prosesdə BMT-nin Azərbaycana dəstəyini bir daha ifadə etdi.

# Milli Məclisdə boş qalan deputat yerlərinin sayı 10-a çatdı

***Xəbər verdiyimiz kimi, Mərkəzi Seçki Komissiyasının iclasında Ramin Məmmədov Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri təyin edilməsi ilə bağlı deputat mandatından məhrum olunub.***

"Unikal"ın məlumatına görə, bununla da Milli Məclisdə boş qalan deputat yerlərinin sayı 10-a çatıb. R.Məmmədov 64 saylı Sabirabad ikinci seçki dairəsinin deputatı olub.

Xatırladaq ki, keçən il Milli Məclisin deputatları Madər Musayev və Qənirə Paşayeva vəfat ediblər. Mərkəzi Seçki Komissiyanın 17.03.2022-ci il tarixində keçirilən iclasında isə Şahin Seyidzadə "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri təyin edilməsi ilə bağlı (Konstitusiyanın 89-cu maddəsinə əsasən, Milli Məclisin deputatı başqa ödənişli fəaliyyətlə məşğul olduğuna görə) deputat mandatına xitam verilib.

Bundan başqa, Sumqayıt Ağır Cinayətlər Məhkəməsinin hökmünə əsasən, deputat Eldəniz Səlimov 3 il 6 ay müddətinə azadlıqdan məhrum olunub. Konstitusiyanın 89-cu maddəsinə əsasən, cinayət törətdikdə və məhkəmənin qanuni qüvvəyə minmiş hökmü olduqda Milli Məclisinin deputatı mandatından məhrum edilir. Sumqayıt Apellyasiya Məhkəməsində hakim Məhəmmədəli Rzayevin sədrliyi ilə keçirilən prosesdə elan olunana qərara əsasən, birinci instansiya məhkəməsinin hökmü dəyişdirilmədən qüvvədə saxlanılıb. Beləliklə, Eldəniz Səlimovun Milli Məclisin deputatı mandatına xitam verilib.



Həmçinin, 3 il öncə Milli Məclisə 116 saylı Qəbələ seçki dairəsindən seçilən deputat Fəttah Heydərov vəfat edib.

Xatırladaq ki, 2020-ci ilin fevral ayında keçirilən Milli Məclisə növbədənkənar seçkilər zamanı Mərkəzi Seçki Komissiyası baş vermiş qanun pozuntularına görə 4 dairənin nəticələrini ləğv edib. Nəticəsi ləğv edilmiş dairələr 33 saylı Xətai birinci seçki dairəsi (lider namizəd Hüseynbala Mirələmov), 35 saylı Xətai üçüncü seçki dairəsi (lider namizəd Rauf Arifoğlu), 74 saylı Lənkəran kənd seçki dairəsi (lider namizəd Hadı Rəcəbli) və 80 saylı İmişli-Beyləqan seçki dairəsi (lider namizəd Çingiz Qənizadə) olub.

# Şahin Mustafayev Rusiyaya gedir



***Mayın 17-də Kazan şəhərində Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Agentliyi (AZPROMO) və Rusiyanın Azərbaycandakı Ticarət Nümayəndəliyinin iştirakı ilə dəyirmi masa keçiriləcək.***

"Unikal" xəbər verir ki, bu barədə "KazanForum"un saytında məlumat verilib.

Tədbirdə Azərbaycanın Baş nazirinin müavini Şahin Mustafayev, Rusiya Baş nazirinin müavini Aleksey Overçuk, Azərbaycanın iqtisadiyyat nazirinin müavini Sahib Ələkbərov, Rusiya iqtisadiyyat nazirinin müavini Dmitri Volvaç, AZPROMO-nun rəhbəri Yusif Abdullayev, KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov, İqtisadiyyat Nazirliyi yanında İqtisadi Zonaların İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Seymur Adıgözəlov və digər rəsmi şəxslər iştirak edəcək.

Xatırladaq ki, "KazanForum" 2024-cü il mayın 14-dən 19-dək Tatarıstanda keçiriləcək. Bu tədbirdə Azərbaycan, Əlcəzair, Əfqanıstan, Bəhreyn, Misir, İndoneziya, İran, Qazaxıstan, Qətər, Küveyt, Malayziya, Mərakeş, BƏƏ, Suriya, Tacikistan, Özbəkistan və digər ölkələrin nümayəndələrinin iştirakı gözlənilir.

# Şavkat Mirziyoyev Mikayıl Cabbarovu qəbul edib

***Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarovu qəbul edib.***

"Unikal" xəbər verir ki, bu barədə iqtisadiyyat naziri Mikayıl Cabbarov özünün "X" hesabında paylaşım edib.

Nazir Azərbaycan-Özbəkistan strateji tərəfdaşlıq münasibətlərinin dərinləşdirilməsi və iki ölkə prezidentlərinin siyasi iradəsi və dostluq münasibətləri əsasında daha yüksək səviyyəyə çatdırılması, iqtisadi platformada ortaq maraqlara xidmət edən təşəbbüslər və əməkdaşlıq formatının birgə inkişafa verdiyi töhfələr barədə fikirlər ifadə edildiyini bildirib.

# Nazirlik: 163 abidə mina və sursat partlayışı riski olan ərazilərdədir

***İqlim dəyişikliyi ilə bərabər, müharibələr də xeyli sayda mədəni və təbii irsin dağıdılması ilə nəticələnir.***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini Səadət Yusifova VI Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində keçirilən "Keçmiş və gələcəyin mühafizəsi: iqlim dəyişikliyi fonunda mədəni irs" adlı panel sessiyasında çıxışı zamanı deyib.

O xatırladıb ki, torpaqlarımızın 30 ilə yaxın müddət ərzində Ermənistan tərəfindən işğalı mədəni və təbii irsimizin dağıdılmasına gətirib çıxarıb, bizim milli irsimiz mədəni soyqırımına məruz qoyub:

"Ümumilikdə, Qarabağ və Şərqi Zəngəzurda 705 tarix və mədəniyyət abidəsi dövlət qeydiyyatına alınıb. Eyni zamanda aparılan təhlillər nəticəsində müəyyən olunub ki, işğal dövründə onlar məqsədli şəkildə dağılmaya, vandalizmə məruz qalıb, 47 abidə yer üzündən silinib. 163 abidə təhlükəsizlik səbəbindən inventarlaşdırılma aparılmayan abidələr olub. Bu abidələr əsasən mina və sursat partlayışı riski olan ərazilərdədir. Bu abidələrin bərpası və konservasiyası Böyük Qayıdış prosesinin tərkib hissəsidir. Mədəni irsin qorunması və gələcək nəsillərə tam şəkildə çatdırılması qarşımızda duran əsas vəzifələrdəndir", - deyə o qeyd edib.



## "Delimitasiya prosesi zamanı bu bölgələrdə gərginlik yaranacaq"

Qabil Hüseynli: "Nikol Paşinyan hökumətinə qarşı hərbçilərin də qatıla biləcəyi bir etiraz dalğası yaratmaq istəyirlər, amma heç nəyə nail ola bilməyəcəklər"

***Bu gün səhər saatlarında Ermənistanın Tavuş vilayətinin Kirants (Xeyrimli) kəndində Azərbaycanla sərhədin delimitasiyasına etiraz edənlər yolu bağlayıblar.***

Ermənistan Daxili İşlər Nazirliyinin məlumatına əsasən, həmin əraziyə çox sayda polis qüvvələri cəlb olunub. Bildirilib ki, 31 nəfər saxlanılaraq polis bölməsinə aparılıb. Bu məqamda Ermənistanda keçirilən etiraz aksiyasının delimitasiya prosesinə necə təsir edəcəyi maraq doğurub.

Məsələ ilə bağlı "Unikal"a açıqlama verən politoloq Qabil Hüseynli bildirib ki, bu və ya digər etiraz aksiyası delimitasiya prosesinə təsir etməyəcək: "Delimitasiya prosesində ən ağır mərhələ anklav kəndlərin qaytarılması idi ki, ona etiraz edirdilər. Bundan sonrakı yerlərdə demək olar ki, əhalinin məskunlaşdığı sərhəd bölgələri o qədər də çox deyil. Üstəlik, həmin sərhəd bölgələrində əhalini qızışdıran Sarkisyanlar, Köçəryanlar, Ohanyanlar və digərləri demək olar ki, yox səviyyəsindədir", - deyə o qeyd edib.

Politoloq söyləyib ki, bu prosesi qızışdıran Daşnaksütyun partiyasının fəalları ilə Sarkisyan, Köçəryan və Ohanyanın adamlarıdır: "Onlar vəziyyətdən sui-istifadə edib Nikol Paşinyan hökumətinə qarşı hərbçilərin də qatıla biləcəyi bir etiraz dalğası yaratmaq istəyirlər, amma heç nəyə nail ola bilməyəcəklər. Onların sayı azdır və pis təşkil olunublar. Üstəlik də, dövlətin əlində ordu və asayiş keşikçiləri var. Baş verən proseslərdə kiminsə Ermənistanın milli maraqlarına xəyanət etdiyini sübut etmək mümkün deyil. Təbii bir proses gedir. Bu prosesə də etiraz edənlər ortaya dəlil, sübut qoymalıdır. Onlarda isə belə bir sübut yoxdur. Onu da qeyd edim ki, delimitasiya prosesi qısa zaman ərzində başa çatan bir proses deyil. Xüsusilə, Zəngəzurda, Kəlbəcərdə, işğal dövründə ermənilər tərəfindən istismar edilən və faydalı qazıntıların olduğu bölgələrdə delimitasiya prosesində gərginlik yaranacaq. Mənim zənnimcə, delimitasiya prosesi ən azı 1 il davam edəcək".

***Murad İbrahimli***

***Milli Məclisin deputatı Vüqar Bayramov "Unikal"a müsahibə verib. O, çoxuşaqlı ailə anlayışının 5-dən 3-ə endirilməsindən, büdcəyə yenidən baxılacağı halda hansı sahələrə vəsaitin ayrılacağından, pensiya yaşının nə zaman azaldıla biləcəyindən, hansı bankların bağlana biləcəyindən və əhalinin gəlirlərinin neçə faizini ərzaq məhsullarına xərcləməsindən danışıb.***

# "Azərbaycan üçün 3 istiqamət daha prioritetdir"

## Vüqar Bayramov: "Bunlar işğaldan azad olunmuş ərazilərimizin bərpası, yenidən qurulması, milli təhlükəsizliyimizin, müdafiə qabiliyyətimizin daha da gücləndirilməsi və sosial təminat xərcləridir"



***-Vüqar müəllim, Azərbaycanda çoxuşaqlı ailə anlayışının 5-dən 3-ə endirilməsini təklif etmişdiz. Bu məsələ ilə bağlı hansısa müzakirələr gedirmi və sayın azaldılması belə ailələrə nə kimi köməklik edəcək?***

-Milli Məclisin komitə iclasında müzakirələr zamanı çoxuşaqlı ailə anlayışına baxılması və 3 uşaqlı ailələrin çoxuşaqlı hesab edilməsini təklif etmişdik. "Əmək pensiyaları haqqında" qanuna əsasən, 5 və daha çox uşağı olan valideynlər güzəştli şərtlərlə pensiyaya çıxa bilirlər. Eyni zamanda, "Sosial müavinətlər haqqında" qanunda bu 5-dən çox olaraq göstərilib. Təklifimiz ondan ibarətdir ki, ziddiyyət aradan qalxsın. Bunun aradan qalxmasına ehtiyac var. Bunlarla yanaşı, digər təklifimiz ondan ibarətdir ki, çoxuşaqlı ailə anlayışında 3 uşaq çoxuşaqlı olaraq hesab edilsin. Bizim qiymətləndirmələr göstərir ki, bu təklifin qəbul edilməsi təxminən 140 mindən artıq ailənin dövlət büdcəsindən aylıq sosial müavinət almasına gətirib çıxaracaq. Bu, həmin ailələrin sosial təminatının daha da yaxşılaşdırılması baxımından vacibdir. Biz təklifləri təqdim edirik, hökumətdə qiymətləndirmələrdən sonra bununla bağlı qərar verilir.

***-2024-cü ilin I rübündə dövlət büdcəsində 821,7 milyon manat artıqlıq yaranıb. Əgər büdcəyə yenidən baxılarsa, əlavə vəsait hansı sahələrə ayrıla bilər? Maaş, pensiya və müavinətlərdə artım ola bilərmi?***

-Azərbaycan üçün 3 istiqamət daha prioritetdir. Bunlar işğaldan azad olunmuş ərazilərimizin bərpası, yenidənqurulması, milli təhlükəsizliyimizin, müdafiə qabiliyyətimizin daha da gücləndirilməsi və sosial təminat xərcləridir. Birinci rübün yekunları göstərir ki, büdcədə proqnoza nisbətən həm gəlir, həm də xərclərdə artımlar var. Gəlirlərdə 8,1 faiz artım qeydə alınıb. Xərclərdə artım isə 34 faizə yaxındır. Xüsusilə sosial xərclərdə 40 faiz artım var. Güman olunur ki, 2024-cü ilin dövlət büdcəsinə yenidən baxılarsa, qeyd etdiyim 3 istiqamət əsas götürüləcək. Bu istiqamətlər üzrə qərarların veriləcəyi istisna edilmir. Dövlət büdcəsinə yenidən baxılması hökumətdə aparılan müzakirələrdən sonra bəlli olacaq. Büdcəyə yenidən baxılması ilə bağlı qərar qəbul edilərsə, xərc istiqamətləri ilə bağlı təkliflərimizi təqdim edəcəyik.

***-Pensiya yaşının azaldılması ilə bağlı daim fikirlər səsləndirilir. Yaxın illərdə ölkəmizdə pensiya yaşına yenidən baxılması mümkündürmü?***

-Pensiya yaşı ilə bağlı yanaşmamız ondan ibarətdir ki, differensial yaş mexanizmi tətbiq olunsun. Xanımların daha tez pensiyaya çıxmasını təklif edirik. Burada iki məqam var. Birincisi, xanımların pensiya yaşının kişilərlə müqayisədə daha az olmasıdır. Belə ki, xanımların pensiya yaşı 63 yaşda saxlanılsın. Daha öncə bu təklifləri təqdim etmişdik. Ona görə ki, xanımların xüsusən yaşlı dövrlərində sosial təminata daha çox ehtiyacları var. Rəsmi statistika göstərir ki, xanımların əmək haqqı ilə kişilərin əmək haqqı arasında fərq var. Kişilərin rəsmi əmək haqqı xanımlarla müqayisədə təxminən 2 dəfə çoxdur. Bu o deməkdir ki, xanımların sosial kapital yığımları da nisbətən azdır. Çünki onların rəsmi maaşı yüksək deyil. Ona görə də xanım vətəndaşlarımız üçün pensiya yaşı tamam olan zaman kapitalın xüsusi əmsala vurulmasını təklif edirik. Əgər xanım vətəndaşımızın pensiya kapitalı 40 min manatdırsa, həmin vəsait 1,5 əmsalına vurulsun. Bu zaman kapital avtomatik olaraq 60 min manat olur. Bu da imkan verir ki, xanım vətəndaşımız pensiya yaşı tamam olan zaman daha çox pensiya alsın.

***-Bankların vəziyyəti ilə bağlı məsələ də zaman-zaman müzakirə mövzusudur. Hazırda ölkəmizdə fəaliyyət göstərən banklardan bağlanma təhlükəsi olan varmı?***

-Bankların sağlamlaşdırılması prosesi davam edir. Bankların müflisləşdirilməsi deyil, onların sağlamlaşdırılması və lazım olan halda birləşdirilməsi daha məqsədəuyğundur. Rəsmi statistika göstərir ki, Azərbaycanda sistem əhəmiyyətli banklarla yanaşı, orta və ya nisbətən zəif hesab edilən banklar da var. Nisbətən zəif hesab edilən bankların sağlamlaşdırılması prosesi ayrıca proqram çərçivəsində həyata keçirilsin. Məhz zəif bankların müflisləşməsinin qarşısının alınması və onların sağlamlaşdırılması mümkün olsun. Bank sektoru ilə bağlı rəqəmlər onu göstərir ki, sistem əhəmiyyətli, eləcə də orta kapitallı hesab edilən bankların aktivlərindəki artım prosesi davam edir. Vacib məqamlardan biri zəif bankların gücləndirilməsi ilə bağlı fəaliyyətlərin genişləndirilməsidir.

***-Bu ilin ilk rübündə Azərbaycanda ərzaq məhsullarının alınmasına 6 milyard 886 milyon manat xərclənib. Ölkə əhalisi gəlirlərinin neçə faizini ərzaq məhsullarına xərcləyir?***

-Azərbaycan vətəndaşlarının xərclərinin təxminən yarısı - 51 faizi ərzaq məhsullarının alınması üçün istifadə olunur. Bunun ənənəvi səbəbləri ilə yanaşı həm də istehlak bazarında ərzaq məhsullarının qiymətlərinin də təsirləri var. Xüsusilə 2022-2023-cü illərdə müşahidə edilən inflyasiya ərzaq məhsullarının qiymətlərinin artmasına gətirib çıxardı. Bu da ərzaq məhsullarının pərakəndə ticarətdə payının xərclərinə olaraq artmasına səbəb oldu. Ərzaq məhsullarına daha çox vəsaitin ayrılması yığım imkanlarını məhdudlaşdırır. Bu, təhsil, innovativ və digər istiqamətlərə daha çox vəsaitin ayrılmasına imkan yaratmır. Ona görə də ərzaq məhsullarının qiymətlərinin optimallaşması müşahidə olunarsa, bu zaman ərzaq xərclərinin ümumi istehlakda payının azalmasını müşahidə edə bilərik. Hələlik vətəndaşlarımızın xərclədiyi hər 10 manatın 5 manatı ərzaq məhsullarının alınması üçün istifadə olunur.

***Anar Kəlbiyev***

14_27 IYUI-QARA.qxd 5/2/2024 8:48 PM Page 8



# Səhiyyə Nazirliyində həbslər davam edə bilər

## Teymur Musayevin rəhbəri olduğu qurumda "köhnə hamam, köhnə tas" prinsipi ilə işləyənlər kimlərdir?

***Yola salmaq üzrə olduğumuz həftə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin keçirdiyi əməliyyat-axtarış tədbirləri nəticəsində Səhiyyə Nazirliyinin (SN) Respublika Sanitariya-Karantin Mərkəzi publik hüquqi şəxsin baş direktoru Saleh Novruzi, direktor müavini Yadulla Balışov və Laboratoriya şöbəsinin müdiri Tahir Vəliyev cinayət başında yaxalanıblar.***

Bu barədə Baş Prokurorluq və Səhiyyə Nazirliyi birgə məlumat yayıb. Qeyd olunub ki, fakt üzrə Baş İdarədə Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb.

Əməliyyat-istintaq tədbirləri ilə həmin şəxslərin qabaqcadan əlbir olaraq müayinə məqsədli nümunələr götürülmədən idxal və daxili istehsal məhsullarının gigiyenik sertifikatlaşdırılması və digər bu kimi qanunsuz hərəkətləri müqabilində işlədikləri quruma müraciət etmiş ayrı-ayrı vətəndaşların külli miqdarda pul vəsaitlərini rüşvət qismində almalarına əsaslı şübhələr müəyyən edilib.

Qeyd edilən vəzifəli şəxslərin xidməti otaqlarında və digər ünvanlarda aparılmış axtarışlarla iş üzrə əhəmiyyət kəsb edən sənəd və başqa sübutlar aşkar edilərək götürülüb.

İlkin sübutlar əsasında Saleh Novruzi, Yadulla Balışov və Tahir Vəliyev şübhəli şəxs qismində tutularaq Cinayət Məcəlləsinin 311.3.1, 311.3.2, 311.3.3 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən təkrar və külli miqdarda rüşvət alma) və 308.2-ci (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilib, hər 3 şəxsin yaşı və səhhəti nəzərə alınmaqla, barələrində istintaq orqanının vəsatəti, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında məhkəmənin qərarı ilə ev dustaqlığı (əsas) və vəzifədən kənarlaşdırma (əlavə) növündə qətimkan tədbirləri seçilib.

Hazırda iş üzrə bütün qanunazidd hallar tam və hərtərəfli araşdırılmaqla digər təqsirli şəxslərin müəyyənləşdirilməsi istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

"Unikal"ın araşdırmasına görə, Respublika Sanitariya-Karantin Mərkəzinin cinayət başında yaxalanan rəisi Saleh Novruzi 2020-ci ilin iyun ayında bu vəzifəyə təyinat alıb. Onun rəis təyinatı ilə bağlı əmri isə o vaxtkı səhiyyə naziri Oqtay Şirəliyev imzalayıb. Daha əvvəl Respublika Sanitariya-Karantin Müfəttişliyinin (RSKM) Sanitariya-Gigiyena şöbəsinin müdiri vəzifəsində çalışan Novruzinin Şirəliyevə yaxın kadr olduğu deyilir. "O, Respublika Sanitariya-Karantin Mərkəzinə rəis təyin edilərkən bu, bir çoxlarının təəccübünə səbəb olmuşdu, lakin sabiq nazirlə yaxınlığını nəzərə alsaq ortada təəccüblü heç nə yox idi" deyə əldə etdiyimiz məlumatda bildirilir.

Novruzidən öncə Respublika Sanitariya-Karantin Müfəttişliyinə Sara Həsənov rəhbərlik edirdi. Lakin Şirəliyev onu vəzifəsindən azad edərək SN-nin tabeliyindəki başqa bir quruma - Respublika Gigiyena və Epidemiologiya Mərkəzinə direktor göndərib. Həsənovdan boşalan posta isə məhz Novruzi gətirilib.

"Respublika Sanitariya-Karantin Mərkəzində rüşvət və korrupsiya halları son illərdə tamamilə adi hal almışdı, bu səbəbdən də qurumda əməliyyat-axtarış tədbirlərinin keçirilməsi, başda Saleh Novruzi olmaqla rəhbər şəxslərin cinayət başında yaxalanması sürpriz deyil. Həmin əməliyyat-axtarış tədbirlərindən hazırkı səhiyyə naziri Teymur Musayevin də öncədən xəbəri olub. Bu isə belə deməyə əsas verir ki, Musayev də Mərkəz rəhbərliyinin fəaliyyətindən narazı imiş" deyə qaynaqlarımız vurğulayırlar.



O da vurğulanır ki, Səhiyyə Nazirliyinin müxtəlif vəzifəli şəxsləri hələ də "köhnə hamam, köhnə tas" prinsipi ilə işləyirlər. Xüsusilə Oqtay Şirəliyevin zamanında irəli çəkilən kadrlar ölkə rəhbərliyinin məmurlara yönəlik xəbərdarlıqlarından, dövlət orqanlarında mütəmadi həyata keçirilən anti-korrupsiya tədbirlərindən nəticə çıxarmaq iqtidarında deyillər. Teymur Musayevin nazir təyinatından sonra belə kadrların bir çoxu vəzifələrini itirsələr də, SN-də keçmişdən qalma zərərli vərdişlərini tərgitmək niyyətində olmayanlar yetərincədir. Bu səbəbdən gələcəkdə Səhiyyə Nazirliyinin tabeliyindəki müxtəlif qurumlarda oxşar axtarış-əməliyyat tədbirlərinin həyata keçirilməsi, başqa vəzifəli şəxslərin də Saleh Novruzi ilə eyni aqibəti yaşaması istisna olunmur.

Xatırladaq ki, hazırkı səhiyyə naziri, 54 yaşlı Teymur Musayev sözügedən vəzifəyə 2022-ci ilin yanvarında təyin olunub. Bundan əvvəl isə o, ölkə başçısının 23 aprel 2021-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikası səhiyyə nazirinin birinci müavini, Azərbaycan Respublikası səhiyyə nazirinin səlahiyyətlərinin icraçısı təyin edilib.

Musayevin sələfi Oqtay Şirəliyev isə səhiyyə naziri postunda 16 il çalışdıqdan sonra 2021-ci ilin aprelində həmin postdan kənarlaşdırılmışdı.

***Toğrul Əliyev***

# Qaziyə 52 min manata mənzil alacağını söz verən şəxs hakim qarşısında

***Bakıda 20 vətəndaşa qarşı külli miqdarda dələduzluq etməkdə təqsirləndirilən Anar Məmmədovun cinayət işi üzrə məhkəmə prosesi keçirilib.***

"Unikal"ın verdiyi məlumata görə, Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi Azər Tağıyevin sədrliyi ilə keçirilən prosesdə zərərçəkmiş şəxslər dindirilib. Zərərçəkmiş Elnur Şəfiyev bildirib ki, ona dəymiş ziyan 52 min 500 manatdır:

"Özüm qaziyəm, 3-cü qrup əliləm. Mən güzəştli şərtlərlə mənzil verilməsində köməklik edəcəyi ilə bağlı yalan söz verdi". Təqsirləndirilən şəxs bildirib ki, zərərçəkmiş şəxs qərəzli fikirlər səsləndirir: "Mənə əlbəəl 15 min verib. 8 min 600 manatını geri qaytarmışam. 37 min manat isə Əbdülə vermişdim. Mənə pulları Əbdül adlı şəxs verib". Zərərçəkmiş İltuhə Şahbazova ifadəsi zamanı bildirib ki, təqsirləndirilən şəxsi Ruhiyyə adlı xanım vasitəsilə tanıyıb: "Maşınım köhnəldiyindən satmaq istəyirdim. Dedi ki Nicat adlı maşın ustası var və o bu maşını 25 min manata istəyir. Maşın satıldı və mənə 17 min manat verildi. Ancaq 8 manat verilmədi. Həmçinin digər maşın almaq üçün 4000 manat pul vermişdim. Arada məni inandırmaq üçün maşınları, evi göstərirdi. Qohumum Səadət adlı xanıma qarşı da sosial müavinət düzəldirəcəyi ilə bağlı yalan vəd verib 1000 manat dələduzluq edib".

Zərərçəkmiş Tahir Hümbətov qeyd edib ki, kəsilən pensiyasının bərpası üçün təqsirləndirilən şəxsə ümumilikdə 4 min 500 manat pul verib. Zərərçəkmiş Ülviyyə Şəfiyeva isə deyib ki təqsirləndirilən şəxsə ev almaq üçün 2 min manat pul verdiyini deyib.

Məhkəmənin növbəti iclası mayın 23-nə təyin edilib.

Qeyd edək ki, təqsirləndirilən şəxs Anar Məmmədova qarşı Cinayət Məcəlləsinin 178.3.2-cü (dələduzluq, külli miqdarda ziyan vurmaqla ) maddəsi ilə ittiham irəli sürülüb.

***Azər İsrafilov***

# BMT Baş katibi COP29-da iştirak etmək niyyətindədir

***BMT Baş katibi Azərbaycanda keçiriləcək COP29 tədbirində iştirak etmək niyyətindədir.***

Bunu Prezident İlham Əliyevlə görüşdə BMT Baş katibinin iqlim fəaliyyəti və ədalətli keçid üzrə xüsusi müşaviri Selvin Çarlz Hartı deyib. Azərbaycan Prezidenti BMT Baş katibini COP29-da görməkdən məmnun olacağını deyib.

Dövlət başçısı vurğuladı ki, COP29-a hazırlıq məqsədilə bütün lazımi və zəruri işlər plana uyğun davam etdirilir. Azərbaycan beynəlxalq ictimaiyyətlə və təsisatlarla COP29-un substantiv məsələləri üzrə danışıqlar və məsləhətləşmələr aparır.

# Hicran Əyyubova kollecə direktor təyin olundu

***Tovuz Dövlət Sosial-İqtisadi Kollecinə yeni direktor təyin olunub.***

"Unikal" xəbər verir ki, bununla bağlı müvafiq əmr imzalanıb. Əmrə əsasən, Hicran Əyyubova kollecin direktoru vəzifəsinə təyinat alıb. Qeyd edək ki, H.Əyyubova Azərbaycan Dillər Universitetində bakalavriat, Gəncə Dövlət Universitetində isə magistratura səviyyəsi üzrə təhsil alıb. O, 2006-2022-ci illərdə İsmayıl Şıxlı adına Qazax rayonu Kosalar kənd tam orta məktəbində müəllim, 16.12.2022-ci il tarixindən isə Qazax şəhər Qaratel Hacımahmudova adına ümumi orta məktəbində direktor vəzifəsində çalışıb.

İngilis, fransız, türk dillərini bilir.

# Komitə sədri vətəndaşların növbəti qəbulunu keçirib

***Mayın 2-də Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev vətəndaşların növbəti qəbulunu keçirib.***

"Unikal" xəbər verir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması, məşğulluğunun artırılması üçün genişmiqyaslı tədbirlər həyata keçirilib. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın da müharibədən əziyyət çəkən insanlara, o cümlədən məcburi köçkünlərə xüsusi diqqət və qayğı göstərdiyi qeyd olunub.

Komitə sədrinin fərdi qaydada qəbul etdiyi məcburi köçkünlər də tezliklə doğma yurda qayıdacaqlarına əmin olduqlarını bildiriblər. Qəbulda iştirak edən vətəndaşların müraciətləri, əsasən, mənzil-məişət şəraitinin yaxşılaşdırılması, kommunal xidmətlər, status, vahid aylıq müavinət, məşğulluq, işğaldan azad olunmuş ərazilərə qayıdış və digər məsələlərlə əlaqədar olub.

Vətəndaşlara bildirilib ki, müraciətləri və qaldırdıqları məsələlər araşdırılacaq, qanunvericiliyə uyğun şəkildə həll ediləcəkdir.

14_27 IYUl-QARA.qxd 5/2/2024 8:48 PM Page 9



# Büdcəyə yenidən baxılacaq, gəlir və xərclər artırılacaq



***Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsinə yenidən baxılacaq.***

Büdcəyə may ayında baxılması gözlənilir. Büdcəyə yenidən baxılacağı halda əsas prioritet işğaldan azad olunan ərazilərimizin bərpa və yenidən qurulması, milli təhlükəsizlik, sosial təminat kimi istiqamətlər olacaq.

Proqnozlara əsasən, büdcə gəlirləri ötən illərlə müqayisədə 8,1 faiz, büdcə xərcləri isə 33,8 faiz çox icra olunub. Həm neftqaz, həm də qeyri-enerji sektorundan büdcəyə daxil olmalar proqnozlaşdırılandan daha çox olub.

Qeyd edək ki, əvvəlki illərin təcrübələrində profisit səbəbindən dövlət büdcəsinə yenidən baxılaraq dəyişikliklər edilib.

Bununla bərabər, "Büdcə Sistemi" haqqında Qanuna əsasən, may ayının 15-dən tez və oktyabr ayının 15-dən gec olmayaraq, cari ilin dövlət büdcəsinə yenidən baxılması barədə Milli Məclis qarşısında məsələ qaldırıla bilər.

# Səfir: Aİ Azərbaycanın COP29-da sədrliyini dəstəkləyir

***Avropa İttifaqı (Aİ) iqlim problemlərini daha qlobal səviyyədə həll etmək üçün Azərbaycanın COP29-da sədrliyini dəstəkləyir və onunla işləməyə hazırdır.***

"Unikal" xəbər verir ki, bunu Aİ-nin Azərbaycandakı səfiri Peter Mixalko Ümumdünya Mətbuat Azadlığı Günü münasibətilə jurnalistlərlə görüşündə deyib.

Onun sözlərinə görə, bu il tərəflər arasında əməkdaşlığın əsas istiqaməti iqlim dəyişikliyi mövzusudur: "Avropa İttifaqı və Azərbaycan yaxın tərəfdaşlar olaraq qalır. Biz dialoqumuzu və sıx əməkdaşlığımızı davam etdirməyə hazırıq. Prioritet olan sahələr var. Bu il buraya qlobal əhəmiyyət kəsb edən iqlim dəyişikliyi ilə mübarizə daxildir. Bu sahə Aİ-Azərbaycan münasibətləri üçün xüsusi əhəmiyyət kəsb edir".

# Penitensiar Xidmət və DİN birgə əməliyyat keçirdi




***Penitensiar Xidmət və Daxili İşlər Nazirliyi birgə əməliyyat keçirib.***

"Unikal" xəbər verir ki, birgə aparılan əməliyyat-axtarış tədbiri nəticəsində silah-sursat aşkar edilib.

Belə ki, Çobanov Nicat Qürbət oğluna məxsus bir ədəd AKS markalı avtomat silah və içərisində 10 ədəd 5,45 kalibrli güllə olan 1 ədəd avtomat sandıqcası Binəqədi rayonu Çiçək qəsəbəsi ərazisində aşkar edilərək götürülüb.

Faktla bağlı araşdırma aparılır.

# Bu quruma 2 yeni xidməti avtomobil veriləcək



***Nazirlər Kabineti 18 iyul 2011-ci il tarixli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatlarda nəqliyyat vasitələrindən istifadə qaydalarının təkmilləşdirilməsi haqqında" qərarında dəyişiklik edib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Baş nazir Əli Əsədov yeni qərar imzalayıb.

Qərara əsasən, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidmətinə 2 ədəd xidməti minik avtomobili veriləcək.

# Minlərlə vətəndaşın Əli Əsədovdan haqlı gözləntisi

## Həftənin sualı: Nazirlər Kabineti şəxsi mənzilləri zəbt edilən vətəndaşların dərdinə nə vaxt dərman tapacaq?

***Son 32 ildə Bakıda və digər iri şəhərlərdə onlarla insanın şəxsi mənzili məcburi köçkünlər tərəfindən zəbt edilib. Bu günədək həmin evlər sahiblərinə qaytarılmayıb.***

Qeyd edək ki, ötən dövr ərzində məcburi köçkünlər tərəfindən zəbt olunmuş mənzillərin boşaldılması barədə müxtəlif instansiyalı məhkəmələrdə 450-dən artıq qətnamə çıxarılıb. Lakin müəyyən səbəblərdən bu qətnamələrin demək olar ki, 99 faizi icra olunmayıb. Hətta 30-dan artıq iddiaçı İnsan Haqları üzrə Avropa Məhkəməsinə qədər gedib çıxıb.

44 günlük müharibədə əldə olunan Böyük Qələbədən sonra mənzilləri zəbt olunmuş insanlarda bir inam yaranıb ki, nəhayət onlar öz mənzillərinə sahib çıxa biləcəklər. Bəs həmin mənzil sahiblərinin gözləntisi özünü doğruldacaqmı?

Öncə problemin kökünə nəzər salaq. 90-cı illərdə torpaqlarımız işğal edildiyi zaman Bakı və digər bölgələrə gələn qaçqınların müvəqqəti yaşayış yerlərinin olması üçün ölkə başçısı Heydər Əliyev bir tapşırıq vermişdi. Məcburi köçkünlər, torpaqları işğaldan azad edilənə qədər məskunlaşdığı yerlərdən çıxarıla bilməzdi. Həmin dövrdə minlərlə ev, məcburi köçkünlər tərəfindən tutulmuşdu və evlərin həqiqi sahibləri, onları evlərdən çıxarmağa çalışsa da, bu mümkün olmamışdı. Hətta köçkünlər, tutduqları mənzilləri özəlləşdirməyə də çalışmışdı.

İndi isə işğaldakı torpaqlar azad edilib, məcburi köçkünlərin doğma yurd-yuvalarına qayıdışı başlayıb. Belədə sözügedən problemin həlli zamanının çoxdan yetişdiyini düşünənlərin sayı sürətlə çoxalır. Bunun üçün isə bütün diqqətlər hökumətə - Nazirlər Kabineti və onun başçısı Əli Əsədova yönəlib. Lakin istər mediada, istərsə cəmiyyətdə mövzu ətrafında müzakirələr getdikcə güclənsə də, hələ ki, Nazirlər Kabinetindən məsələ ilə bağlı hər hansı reaksiya yoxdur. Hökumətin həmin reaksiyasızlığı isə sadəcə təəccüb doğurur.

Yeri gəlmişkən, hələ ötən ilin yayında millət vəkili Fazil Mustafa mövzu ilə bağlı "Bizim.media"ya açıqlamasında demişdi ki, son 30 ildə məcburi köçkünlər tərəfindən nəinki, ayrı- ayrı vətəndaşların mənzilləri, eləcə də bir çox sahibkarın əmlakları zəbt olunub. Sitat: "Nəticədə mənzil sahibi evsiz, sahibkarsa mülksüz qalıb. Ən pisi də odur ki, zəbt edən insanların bir çoxunun başqa-başqa yerlərdə də evləri var. Di gəl ki, zəbt etdikləri mənzilləri boşaltmaq fikrində deyillər". Millət vəkili daha sonra əlavə etmişdi ki, "Qələbədən sonra bu məsələnin həllinə ümid artıb. Bu sahədə bir hərəkətlilik var. İnanmaq istərdik ki, Böyük Qayıdış proqramının icrası vaxtı ilk növbədə mənzilləri və obyektləri zəbt edən vətəndaşlar köçürüləcək. Digər vətəndaşlarımızın da 30 illik ev həsrətinə son qoyulacaq".

Lakin aradan xeyli vaxt keçməsinə baxmayaraq deputatla eyni düşünənlərin gözləntisi elə gözlənti olaraq qalıb. Bu günlərdə isə nəqliyyat məsələləri üzrə ekspert Elməddin Muradlı bəhs etdiyimiz mövzunu bir daha gündəmə gətirib. O, sosial şəbəkədə yazıb ki, 32 ildir dövlətdən ev alan, amma bir gün olsun belə o evlərdə yaşaya bilməyən minlərlə insan var: "Çünki evlər məcburi köçkünlər tərəfindən zəbt edilib. Jurnalistlər binasını və qaçqın-köçkünlər üçün tikilən digər binaları satışa çıxarıb başqalarına verincə nə üçün 30 ildir evində yaşamaq hüququndan məhrum edilmiş insanlara kömək etmirlər?"



Muradlının fikrincə, bəzi məmurlar işlərini doğru-düzgün görmək istəmir: "Axı 30 ildir ev həsrətində olan, dünyasını dəyişən, ömrünün ağır çağlarını yaşayan, illərdir kirayələrdə, ağır şəraitdə yaşamaq zorunda qalan insanların hüquqlarını pozmusunuz. Beynəlxalq məhkəmənin qərarı var. O evlər dərhal sahiblərinə qaytarılmalıdır. Bunun üçün yaxşı imkan yaranıb. Ya o evləri boşaldıb köçkünləri başqa yerə - yeni tikilən, hazırda satışa çıxardığınız binalara köçürüb evləri də sahiblərinə qaytarırsan, ya da evin dəyərinə, yerləşdiyi əraziyə uyğun şərtlərlə əlində sənədi ola-ola 32 ildir evinə kənardan baxan insanlara başqa yerdən - satışa çıxardığınız binlardan ev verirsən. Vətəndaşın hüququnu pozaraq öz cibinizi doldurmayın. Ayıbdır...".

Göründüyü kimi, haqqında danışılan problemin həlli üçün kifayət qədər alternativ yollar var - şəxsi mənzilləri zəbt edən məcburi köçkünlərin doğma yurd-yuvalarına qaytarılmasından tutmuş onların məcburi köçkünlər üçün inşa edilən binalarda boşalan mənzillərə köçürülməsinədək... Hətta ən pis halda sözügedən binalardakı boş mənzilləri öz şəxsi mənzilindən məhrum olmuş vətəndaşlara evin dəyərinə, yerləşdiyi əraziyə uyğun şərtlərlə vermək də problemdən çıxış yoludur.

İstənilən halda Əli Əsədov və onun rəhbərlik etdiyi hökumət kabinetinin 32 ildir şəxsi əmlaklarından məhrum olan insanların yaşadığı haqsızlığı kompensasiya etmək vaxtı çoxdan çatıb. Maraqlıdır, hörmətli Nazirlər Kabinetimiz həmin insanları daha neçə il məlum haqsızlıqla baş-başa qoymaq fikrindədir?!

***Sənan Mirzə***

14_27 IYUl-QARA.qxd 5/2/2024 8:48 PM Page 10



# Çingiz Əsədullayevin adı ətrafında müəmma

## Sabiqlərin izi ilə: bir zamanların səs-küylü deputatı və bankiri ölkəni tərk edibmi?

***"Unikal" qəzeti keçmiş məmurların və eks-deputatların hazırda harada və nə işlə məşğul olduqları barədə silsilə yazıların dərcini davam etdirir. "Sabiqlərin izi ilə" adlandırdığımız həmin silsilədən bugünkü məqaləmiz sabiq deputat Çingiz Əsədullayev haqqındadır.***

Hazırda 64 yaşı olan Ç.Əsədullayev eyni zamanda Azərbaycanda ən böyük əmlak və avadanlığa sahib olan "AGBank"ın başlıca səhmdarı, eləcə də bankın İdarə Heyətinin rəhbəridir. O həmin bankın 103.8 milyon manatlıq səhm kapitalını Beynəlxalq Maliyyə Korporasiyası (IFC), "Kazimir Partners" şirkəti, Fərzulla Yusufov və Marçenko Qriqori (Qazaxıstan Mərkəzi Bankının keçmiş sədri), eləcə də 78 minoritar səhmdarla bölüşürdü.

"AG Bank"ın lisenziyası 2020-ci ilin ilk yarımilliyində ləğv edilmiş, bunun ardınca Çingiz Əsədullayev daha bir vəzifəsindən - "A-Group Sığorta Şirkəti" ASC-nin Direktorlar Şurasının üzvlüyündən uzaqlaşmışdı.

Sabiq deputata məxsus bankın ləğvi ilə bağlı Mərkəzi Bankın qərarında qeyd olunurdu ki, "AGBank" ASC-də də müvəqqəti inzibatçı tərəfindən aparılmış dəqiqləşdirmələr həmin bankın maliyyə vəziyyətinin qeyri-qənaətbəxş olduğunu, kapital mövqeyinin tam itirildiyini təsdiqləyib və daha da pisləşdiyi məlum olub. Sitat: "30 aprel 2020-ci il tarixinə bankın kredit portfelinin 51 faizi qeyri-işlək statusundadır. Məqsədli ehtiyatlarda aparılan korreksiyalardan sonra bankın məcmu kapitalı mənfi 167 milyon manat təşkil edib. Kapital mövqeyinin bərpası üçün 212 milyon manat məbləğində əlavə kapital qoyuluşu tələb olunurdu".

Həmin vaxt yerli KİV yazırdı ki, bankın əsas səhmdarı və İdarə Heyətinin sədri Çingiz Əsədullayev yaxasını kənara çəkməklə, 1992-ci ildən fəaliyyətdə olan bankın ləğvinə seyrçi mövqe tutdu. Çünki Çingiz Əsədullayevin itirəcəyi bir şey yox idi, bank "xortumlanmış" və əsas aktivlər xaricə qaçırılmışdı. Belə ki, əhalinin banklara inamını azaldan əmanətlərə xəyanətlərin, girovların satılaraq bankın əsas və faizlərinin çıxılmasından sonra yerdə qalan hissəsinin sahiblərinə qaytarılmamasının, "çirkli pulyuma" əməliyyatlarının adi hala çevrildiyi iddia edilən "AG Bank"la bağlı sensasion bir iddia uzun müddət ölkə mətbuatının və ictimaiyyətinin gündəmini zəbt eləmişdi. Həmin iddia külli miqdarda pulu leqallaşdırmada təqsirləndirilən Malik Əliyev ("Royalbank"ın 10 saylı filialının keçmiş direktor müavini) və tanışı Rüfət Vəliyevin cinayət işinin araşdırılması zamanı üzə çıxan faktlarla daha da qüvvətlənmişdi. Bu faktlar adıçəkilən bankın çöküşünün labüdlüyünü ortaya qoyurdu. Məsələn, şahid qismində ifadə verən, bankda kassir işləmiş Vidadi Əliyev dindirilərkən demişdi ki, onu işə təqsirləndirilən Malik Əliyev dəvət edib. Təkcə 2014-cü ilin oktyabrında "Elektromaş" MMC-nin adına 10 milyona yaxın pul köçürülüb. Proses zamanı o da məlum olub ki, bəzən bir gündə 100 milyona yaxın



məbləğ mədaxil edilərək götürülüb. Məlumata görə, həmin məbləğlərin Vidadi Əliyev tərəfindən götürülməsi və mədaxil edilməsi ilə bağlı sənəd də imzalanıb. Bununla da Malik Əliyevin rəhbərliyi ilə bu şəbəkə "AGBank"ın ofisində icarədar kimi ofis götürərək bank kimi fəaliyyət göstərib. Nəticədə onlar bank fəaliyyəti görüntüsü yaradıblar. Daha sonra həmin pullar nağdlaşdırılaraq ölkədən çıxarılıb. Bütün bu əməliyyatlar 2013-2015-ci illərdə həyata keçirilib, ümumi olaraq 5 milyard 500 milyon manat xaricdə olan ayrı-ayrı şirkətlərin hesablarına köçürülərək ölkədən çıxarılıb. Məbləğlər 9 ayrı şirkət adına qəbul edilib. Bu şirkətlər də təqsirləndirilən şəxslərin adına açılıb. İttihamda qeyd edilib ki, R.Vəliyev və istintaqa məlum olmayan şəxslərin gətirdiyi cinayət yolu ilə əldə edilmiş külli miqdarda pulları Vidadi Əliyev sayıb, onların saxta olub-olmadığını yoxlayıb. Daha sonra həmin pullar adları qeyd olunan şirkətlərin hesablarına, sonra da xarici ölkələrin banklarındakı hesablara köçürülüb.

"Çingiz Əsədullayevin rəhbərlik etdiyi bank üzərindən 6 milyard manatdan artıq pul ölkədən qaçırılıb, sabiq deputat isə heç nə olmamış kimi ortalıqda gəzir. Halbuki ölkədən qaçırılan, büdcə vəsaitləri olması şübhə doğurmayan məbləğlərin geri qaytarılması zamanı çoxdan çatıb" deyə bir neçə il öncə yerli KİV yazırdı.

Hazırda isə Əsədullayev ortalıqda ümumiyyətlə görünmür. Onun harada olduğu və nə iş gördüyü bəlli deyil. 2005-2015-ci illərdə iki çağırış Milli Məclisin 90 saylı Ağdaş seçki dairəsinin deputatı olmuş sabiq bankirin bir ara ölkədən qaçdığına dair də xəbərlər yayılmışdı. Haqqındakı çoxsaylı ittihamlar qarşısında bir qayda olaraq susqunluq nümayiş etdirən Əsədullayev "şeytanın qıçını sındıraraq" Azərbaycanı tərk etməsi yönündə xəbərlərə münasibət bildirmək ehtiyacı hiss eləmişdi. Sitat: ""Mən ailəmi qoyub haraya gedə bilərəm? Ailəmə, ölkəmə, vətənimə, dövlətimə heç zaman, heç bir halda xəyanət etməyəcəyəm, öz əvvəlki mövqeyimdə qalacağam. Əgər bir gün yenə eşitsəniz ki, ölkədən getdiyimi deyirlər, yenə də inanmayın".

Hərçənd, illər öncəki bu açıqlamasına baxmayaraq bəziləri eks-deputat və sabiq bankirin ən azı 5-6 ildir ortalarda ümumiyyətlə görünməməsini onun artıq Azərbaycan hüdudlarından kənarda yaşaması ilə izah edirlər. Belə düşünənlərin fikrincə, Çingiz müəllim vaxtilə ölkədən çıxardığı pullar hesabına xaricdə əmlak və biznes sahibinə çevrilə bilər.

Bu günlərdə isə Ç.Əsədullayevin adı "AG Bank"la bağlı yenidən gündəmə gəlib. Məlum olub ki, hazırda ləğv prosesində olan bu bank barəsində inzibati iş başlanıb.

Bank İnzibati Xətalar Məcəlləsinin 347-ci (Hüquqi şəxsin mülkiyyətində və ya istifadəsində, yaxud dövlət qurumunun istifadəsində olan nəqliyyat vasitəsini inzibati xətanın törədilməsi zamanı idarə etmiş fiziki şəxs haqqında məlumatın səlahiyyətli orqanın (vəzifəli şəxsin) bu barədə sorğusu daxil olduğu vaxtdan 5 gün müddətində verilməməsi) maddəsi ilə ittiham edilir.

İş baxılması üçün Nəsimi Rayon Məhkəməsinə göndərilib.

Mayın 13-nə iş üzrə məhkəmə baxış iclası təyin edilib.

İclas hakim Elmeddin Hüseynovun sədrliyi ilə keçiriləcək.

347-ci maddəyə görə vəzifəli şəxslər yüz əlli manat məbləğində, hüquqi şəxslər üç yüz manat məbləğində cərimələnir.

Beləliklə, Ç.Əsədullayevin hazırda harada olduğu və nə iş gördüyü bəlli deyil, bircə o məlumdur ki, sabiq deputat və keçmiş bankir sərvətinin böyük hissəsini itirib.

***Toğrul Əliyev***

# Mövlam Şixəliyev maddi ziyanla bağlı məhkəməyə müraciət etdi



***Ləğv olunmuş Milli Təhlükəsizlik Nazirliyinin İstintaq Baş İdarəsinin keçmiş rəisi, hazırda həbsdə olan Mövlam Şixəliyev maddi ziyanla bağlı məhkəməyə ərizə verib.***

"Unikal"ın məlumatına görə, məhkəmə prosesi Nərimanov Rayon Məhkəməsində hakim Ramin Quliyevin sədrliyi ilə araşdırılacaq.

Qeyd edək ki, bundan öncə Mövlam Şixəliyevin ailə üzvləri müxtəlif səbəblərlə bağlı dəfələrlə məhkəməyə müraciət etsələrdə rədd cavabı alıblar. Məhkəmə müraciətlərin qanuni əsasının olmadığını əsas gətirib. Belə ki, keçmiş generalın ailə üzvləri cinayət yolu ilə əldə olunmuş əmlakları leqallaşdırmaq istəyiblər.

***Azər İsrafilov***

# Bakıda bağ evlərinin kirayə qiyməti - 10,15 və 18 min manat

***Yay fəsli yaxınlaşdıqca bağ evlərinə tələbat artır. Tələbatın artması isə qiymətlərə də təsir göstərir. Hazırda elan saytlarında günlük qiyməti 200-250 AZN, aylıq qiyməti isə 5, 10, 15 və 18 min manata olan olan bağ evləri mövcuddur.***

Bəs görəsən, bu qiymətə olan bağ evlərinə tələbat avrmı?

Əmlak məsələləri üzrə ekspert Ramil Osmanlı "Unikal"a açıqlamasında bildirib ki, quru sərhədləri bağlı olduğu üçün Bakı ətrafı ərazilər və turizm baxımından əlverişli olan regionlara mövsümdə tələb artır.

Onun sözlərinə görə, tələb artdıqca bu özünü qiymətlərdə də göstərir: "Tədricən müraciətlərin sayının artması müşahidə olunur. Düşünürəm ki, may ayının ortalarına doğru əhəmiyyətli qiymət dəyişikliyi müşahidə edəcəyik".

Aylıq kirayə qiymətləri yüksək olan bağ evlərinə gəlincə, ekspert bildirib ki, belə evlərə tələbat var: "Belə bağ evlərində eyni avxtda bir neçə ailənin istirahət etməsi üçün zəruri imkanlar mövcuddur. Hovuzu, bir neçə cür hamamı, fitnes imkanları və s. var. Bu baxımdan, dəyər ifadəsi böyük olsa da, bu evlərə tələb var. Hətta yay mövsümündə daha bahalı evlərə rast gəlmək mümkündür".

***Anar Kəlbiyev***

# "Qismət-M House" MMC məhkəməyə verildi

***Nizami Rayonu, R.Rüstəmov küçəsi 24 ünvanında yerləşən "Qismət-M House" MMC (Premium Park Neftçilər) icra hakimiyyətindən icazə almadan yaşıllıqları məhv etdiyi üçün İnzibati Xətalar Məcəlləsi ilə cərimələnə bilər.***

"Unikal"ın məlumatına görə, Nizami rayon Məhkəməsinin hakimi Nəriman Mehdiyevin sədrliyi ilə İnzibati Xətalar Məcəlləsinin 253-1.2.1-ci (Yaşıllıqların mühafizəsi haqqında qanunvericiliyin pozulması- icra hakimiyyəti orqanının rəyi olmadan və ya nəzərə alınmadan yaşıllıqların götürülməsi barədə qərarın qəbul edilməsinə görə) maddəsi ilə araşdırma aparılacaq.

Qeyd edək ki, bu maddə ilə hüquqi şəxslər 3 min manat cərimə edilir.

MMC "Premium Park Neftçilər" adı altında "Neftçilər" metrostansiyasının yaxınlığında yaşayış kompleksi inşa edir.

***Azər İsrafilov***

# İnfarktın bir gün əvvəlki əlamətləri



***Araşdırmalara görə, ürək xəstələrinin yarısında infarkt bir gün əvvəl aydın əlamətlər sayəsində aşkar edilə bilər.***

Tədqiqatın nəticələri "Lancet Digital Health" elmi jurnalında dərc edilib. ABŞ-ın Los-Anceles şəhərindəki Smidt İnstitutunda aparılan yeni araşdırma infarktın bir gün əvvəl "xəbərdarlıq edə biləcəyini" ortaya çıxarıb. Tədqiqat qrupu 18-85 yaş arası xəstələrin iştirak etdiyi iki ayrı araşdırmanın məlumatlarını araşdırıb.

Həmin tədqiqatlarda xəstələr qəfil ürək dayanması keçirmiş insanlar idi. Xəstələrin infarktdan əvvəlki simptomları da araşdırılıb. İki qrupu müqayisə etmək üçün tədqiqat qrupu oxşar xəbərdarlıq əlamətləri göstərən, lakin infarkt keçirməyən insanlara da baxıb.Tapıntılara görə, infarktdan əvvəl qadınlarda əsasən nəfəs darlığı, kişilərdə isə sinə ağrısı olur. Hər iki cinsdə baş verən, lakin o qədər də geniş yayılması müşahidə olunmayan digər xəbərdarlıq əlamətlərinə qıcolmaya bənzər hadisələr və anormal tərləmə daxildir.

Tədqiqatçılar düşünürlər ki, bu əlamətləri başa düşmək həkimlərə və xəstələrə 90 faiz ölümlə nəticələnən qəfil infarktların qarşısını almağa kömək edə bilər. Bu istiqamətdə araşdırmaların davam etdirilməsi məqsədəuyğun hesab edilib.

# Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması qaydaları dəyişdi

***Nazirlər Kabineti 17 sentyabr 2009-cu il tarixli qərarı ilə təsdiq edilmiş "Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydaları"na dəyişikliyi təsdiqləyib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Baş nazir Əli Əsədov yeni qərar imzalayıb.

Qərara əsasən, uzunluğu 150 km-dən çox olan beynəlxalq marşrutlarda oturacaq yerlərinin sayı 23-dən az olan avtobuslarla müntəzəm sərnişin daşımalarının yerinə yetirməsinə icazə veriləcək.

# "Kənddən Şəhərə" həftəsonu yarmarkası təşkil ediləcək

***Kənd Təsərrüfatı Nazirliyi tərəfindən 4-5 may tarixlərində Bakıda "Kənddən Şəhərə" həftəsonu yarmarkası təşkil olunacaq.***

"Unikal" xəbər verir ki, yarmarkada ümumilikdə 20-yə qədər regiondan 40-a yaxın fermerin iştirakı gözlənilir. Fermerlər 90-a qədər çeşiddə kənd təsərrüfatı və qida məhsullarının satışını həyata keçirəcəklər.

Nərimanov rayonu, Fətəli xan Xoyski küçəsi, 5 ("Gənclik" metro stansiyasının çıxışı) ünvanında fəaliyyət göstərəcək yarmarkada məhsullar birbaşa fermerlər tərəfindən satışa çıxarılacaq. Məhsulların keyfiyyətinə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi nəzarət edəcək. Vətəndaşlar satışa çıxarılan istənilən məhsulun keyfiyyət göstəricilərini öyrənmək üçün Səyyar Qida laboratoriyasının xidmətlərindən faydalana bilərlər.Yarmarkanın keçirilməsində əsas məqsəd təsərrüfat sahibləri üçün alternativ satış kanalı yaratmaq, həmçinin şəhər sakinlərini yerli və təbii kənd məhsulları ilə dolğun şəkildə təmin etməkdir.

Qeyd edək ki, "Kənddən Şəhərə" yarmarkalarında iştirak etmək istəyən fermerlər +994 50 400 88 99 çağrı mərkəzi ilə əlaqə saxlaya və ya yarmarkanın sosial şəbəkə hesabları üzərindən müraciət edə bilərlər.

# Üç aylıq kənd təsərrüfatı göstəriciləri

2024-cü ilin məhsulu üçün əkilmiş 3015 hektar yazlıq bitkilərin 327 hektarını kartof, 906 hektarını tərəvəz, 1782 hektarını çoxillik yonca otu təşkil edib. (Hazırda yazlıq əkinlər davam edir). 2024-cü ilin aprelin 1-i vəziyyətinə rayon üzrə 45022 baş iribuynuzlu mal-qara, o cümlədən 28770 baş inək və camış, 48671 baş qoyun və keçi mövcud olmuşdur.

2024-cü ilin yanvar-mart aylarında diri çəkidə 4197,1 ton ət, 12987,5 ton süd, 7302 min ədəd yumurta istehsal edilib.

*Ucar Rayon Statistika İdarəsinin rəis müavini Şakir Qasımov*

# İcra başçılarına "qara xəbər"

## Azərbaycanda icra hakimiyyətlərinin ləğvi dəqiqləşir - Gözlər bu tarixə dikilib!



***Azərbaycan yeni idarəetmə modelinə keçməyə hazırlaşır. Bu prosesə icra hakimiyyətlərinin ləğvi ilə start veriləcək. Prezident İlham Əliyevin sərəncamı ilə 14 iqtisadi rayonun yaradılmasından sonra bu məsələ daha da aktuallaşıb.***

Qeyd edək ki, hazırda işğaldan azad edilmiş rayonlarda xüsusi nümayəndəlik institutu fəaliyyət göstərir. Dövlət başçısının sərəncamı ilə yaradılmış yeni institut faktiki olaraq bütün idarəetmə mexanizmini həyata keçirir. Qısa müddət ərzində fəaliyyət göstərməsinə rəğmən bu institutun özünü doğrultduğunu söyləmək mümkündür. Xüsusi nümayəndəliklərin fəaliyyəti Qarabağda geniş vüsət almış quruculuq-abadlıq işlərinin fonunda qiymətləndiriləndə, bu modelin daha geniş coğrafiyada tətbiqinə ehtiyac yaranır.

Bildirək ki, xüsusi nümayəndəlik institunun fəaliyyətə başlaması icra hakimiyyətlərinin "kölgədə" qalmasına səbəb olub. Hazırda icra hakimiyyətləri "JEK" funksiyasını yerinə yetirməkdən o yana keçə bilmirlər. Bu isə həmin strukturun tezliklə ləğv olunacağı ilə bağlı ehtimalı bir qədər də qüvvətləndirib.

"Yeni Sabah" icra hakimiyyətlərinin ləğv ediləcəyi tarixi dəqiqləşdirə bilib. Hakimiyyət dairələrindən sayta bildirilib ki, bu qurumun ömrünü başa vurmasına cəmi bir neçə ay qalıb. Məlumatlı şəxs icra hakimiyyətlərinin ləğv ediləcəyi tarixi də açıqlayıb. Onun sözlərinə görə, icra hakimiyyətləri parlament seçkilərindən dərhal sonra arxivə göndəriləcək.

Mənbə deyib ki, qanun qadağan etsə də, seçki prosesinə rəhbərlik birbaşa icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilir.

"Ölkə kifayət qədər həssas bir dövrə qədəm qoyur. Növbəti parlament seçkiləri yaxın 2-3 ayda baş tutacaq. Belə həssas məqamda icra hakimiyyətlərinin "təcrübəsinə" ələhiddə ehtiyac var. Növbəti seçki təkcə parlamentin indiki tərkibinin deyil, həm də icra hakimiyyətlərinin sonunu gətirəcək",- deyə mənbə fikrini tamamlayıb.

"Unikal" xatırladır ki, Azərbaycanda yerli icra hakimiyyətlərinin ləğvi məsələsi bir neçə ildir ki, gündəmdədir. 2021-ci ilin yanvar ayının 19-da dövlət başçısının imzaladığı fərmanla işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəlikləri institutu yaradılıb. Fərmanda qeyd olunub ki, məqsəd işğaldan azad edilmiş ərazilərin dirçəlişi istiqamətində quruculuq, bərpa və yenidənqurma işlərinin sürətləndirilməsi, bu hədəfə nail olunmasında dövlət orqanlarının (qurumlarının) və digər təşkilatların əlaqələndirilmiş fəaliyyətinin gücləndirilməsi, habelə idarəetmədə çevikliyin və səmərəliliyin artırılmasıdır.

Artıq işğaldan azad edilən bəzi rayonlara xüsusi nümayəndələr təyin olunub. Bundan başqa, dövlət başçısı Naxçıvana prezidentin səlahiyyətli nümayəndəsini təyin edib.

Həm yuxarıda sadalananlar, həm də 2021-ci ilin iyul ayında 14 iqtisadi rayonun yaradılması, həmin rayonlara yeni nümayəndələrin təyin olunması, həmçinin Qarabağda yeni idarəetmə mexanizminin sınaqdan keçirilməsi icra hakimiyyətlərinin ləğvi istiqamətində hazırlıqların getdiyindən xəbər verir.

Ölkə başçısı da çıxışlarının birində mövcud regional idarəçilik modelinin çatışmayan tərəflərinə diqqət çəkmişdi: "Bu, idarəçilik sistemi Sovet İttifaqının çökməsindən sonra yaradılıb. Hesab edirəm ki, bu, o qədər də hərtərəfli düşünülməyib. İndiyə qədər 10-dan çox regional rəhbər şəxslər rüşvət, səhv idarəçilik və digər yanlış hərəkətlərə görə həbs olunublar. Təəssüf ki, bu sahə korrupsiya ilə çirklənib. Qarabağda sınaqdan keçirdiyimiz yeni sistem fərqli olacaq və düşünürəm ki, yekun sınaqlar bitəndən sonra bu sistemi Azərbaycanın digər ərazilərinə də tətbiq etmək və regionlarda dövlət idarəçiliyini təkmilləşdirmək mümkün olacaq".

Bütün bunların fonunda qarşıdan gələn parlament seçkilərinin ardından icra hakimiyyətlərinin ləğv ediləcəyinə dair xəbərin yayılması təəccüb doğurmur. Fakt burasındadır ki, hazırda cəmiyyətdə icra başçılarına etimad və inamın son dərəcə azalması müşahidə edilir, icra hakimiyyətləri öz fəaliyyətini yeni dövrün çağırışlarına uyğun formalaşdırmaqda çətinlik çəkirlər, bu qurumlardan vətəndaşların ciddi narazılığı kimsəyə sirr deyil. Ona görə də yeni yerli idarəetmə metodunun tətbiqi xeyli müddətdir qaçılmaz görünür. Hazırkı yerli idarətmə metodunun əvəzlənməsi üçün fərqli yollar mövcuddur - işğaldan azad edilmiş rayonlarda uğurla tətbiq edilən sistemdən tutmuş bələdiyyələrin səlahiyyətlərinin genişləndirilməsinədək müxtəlif üsullara baş vurmaq mümkündür.

Mümkünsüz görünən isə mövcud situasiyada effektiv idarəetmə baxımından yerli icra hakimiyyətlərinin öz varlığını qoruyub-saxlamasıdır.

*Toğrul Əliyev*

14_27 IYUl-QARA.qxd 5/2/2024 8:48 PM Page 12



## 5.3.7. işğaldan azad olunmuş ərazilərə “Böyük Qayıdış”

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Şuşaya "Böyük Qayıdış" başlayır




***”Böyük Qayıdış” prosesi çərçivəsində artıq Şuşa şəhərinə də köç başlayır. Bu barədə Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin məlumatında bildirilir ki, Şuşa şəhərinə ilkin mərhələdə köçürüləcək ailələr arasında püşkatma keçirilib. Tədbirdə Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəliyinin, Şuşa Rayon İcra Hakimiyyətinin və Dövlət Komitəsi yanında İctimai Şuranın nümayəndələri də iştirak ediblər.***

Qeyd edək ki, Şuşa şəhərinə köçürüləcək ailələr çoxmənzilli binalarda mənzillə təmin olunacaqlar. Yeni yaşayış sahələri indiyədək respublika ərazisində müxtəlif yerlərdə müvəqqəti məskunlaşmış və Şuşa şəhərində daimi qeydiyyatda olan məcburi köçkünlərə verilir. İlk püşkatma şəhid ailələri, qazilər və şəhərdə tikinti, bərpa-quruculuq işlərində çalışan 20 ailə arasında keçirilib və onların hər birinə ailə tərkibinə uyğun mənzil təqdim edilib. Mənzillər 2, 3, 4, 5 otaqlıdır. Püşkatmada iştirak etmiş ailələrin may ayının əvvəllərində Şuşa şəhərinə yola salınması nəzərdə tutulur. Şuşa şəhərinə köçürüləcək ailələr arasında püşkatma mərhələli şəkildə davam etdiriləcək.

Şuşaya ilk köçün məhz mayın əvvəlində (böyük ehtimalla 8 may - red.) baş tutması həm də böyük anlam daşıyır - Şuşa 1992-ci ildə ermənilər tərəfindən məhz mayın əvvəlində tutulmağa başlamışdı, 8 mayda tam işğal olunmuşdu.

”Qaçqınkom”dan verilən məlumata görə, ”Böyük Qayıdış” proqramı uğurla icra olunur. 2024-cü ildə Şuşadan başqa daha 5 şəhərimizə qayıdış planlaşdırılıb və artıq bu planın reallaşdırılması prosesi gedir. Şuşa şəhərində 23 binadan ibarət yaşayış kompleksində aparılan tikinti işləri demək olar ki, başa çatıb. Üçmərtəbəli və beşmərtəbəli binalardan ibarət kompleksdə 450 mənzil var.

Bununla yanaşı, şəhərdə 17 binadan ibarət 2-ci yaşayış kompleksi də inşa edilir. 4,25 hektar ərazidə yerləşən kompleksdə ikimərtəbəli və üçmərtəbəli binalar tikiləcək. Kompleksdəki 238 mənzildən 119-u ikiotaqlı, 119-u isə üçotaqlı olacaq.

Keçən ilin oktyabrında isə Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov məlumat vermişdi ki, 2024-cü ilin birinci rübündə əhalinin Şuşaya köçünə başlanılacaq, ilkin olaraq birdəfəlik 400-dək ailənin köçürülməsi nəzərdə tutulub. Konkret may ayında Şuşa şəhərinə 50 məcburi köçkün ailəsinin köçürülməsi planlaşdırılıb.

Azərbaycan Tibb Universitetinin 7 saylı yataqxanasında 32 ildir məcburi köçkün həyatı yaşayan Nazimə Məhərrəmova da Şuşaya köçəcək sakinlər arasındadır. O, deyir ki, Şuşadan çıxanda gənc ailə olublar. 35 yaşında Şuşanı tərk etdiyini deyən müsahibimiz o zaman uşaqlarının kiçik olduğunu, Bakıda məcburi köçkün həyatı keçirdiklərini bildirib.

”Biz Şuşanı 1992-ci ilin fevral ayında tərk etsək də, kişilər Şuşanı müdafiə edirdilər. Şuşa işğal olunduqdan sonra bir müddət Ağcabədidə yaşasaq da, sonra Bakıya gəldik. Elə o vaxtdan bu tələbə yataqxanasında yerləşdik. Gözəl təbiəti olan Şuşadan sonra tələbə yataqxansında yaşamaq əlbəttə çətin idi. Amma başqa çarəmiz də yox idi. Bizdən də pis şəraitdə məskunlaşan məcburi köçkünlər vardı. Onlara baxıb günümüzə şükür edirdik. Amma qəlbimizdə hər zaman Şuşaya qayıdacağımıza inanırdıq. Hətta illərlə yeşikdə əşyalarımızı açmadıq ki, Şuşanın işğaldan azad ediləcəyi xəbər gələcək. Bəlkə də bir xalq olaraq içimizdəki bu inam oldu bizi Şuşaya qaytaran”, deyə Nazimə Məhərrəmova bildirib.

Nazimə Məhərrəmovanın bu gün ən çox təəssüfləndiyi ömür-gün yoldaşı ilə birgə Şuşaya qayıda bilməməsidir.

Nazimə Məhərrəmova Şuşanı qəhrəmancasına işğaldan azad edən Azərbaycan ordusuna, onun Ali Baş Komandanına bir ömür minnətdar olduğunu söyləyir. Şuşa işğaldan azad olunduqdan sonra bir neçə dəfə öz doğma yurduna gedən Nazimə xanım Şuşanın hər qarışının ona doğma olduğunu söyləyir. Şuşada ata evinin də olduğunu söyləyən həmsöhbətimiz, bütün ruhu ilə Şuşaya bağlı olduğunu bildirir.

”Mənim üç övladım var. İki oğlum Şuşada işləyir. Böyük oğlum Şuşa alınandan oradadır. Heç bura geri qayıtmaq istəmir. İndi o biri oğlumun ailəsi ilə birgə Şuşaya qayıdırıq. Bundan böyük sevinc ola bilməz. Hisslərimizi sözlə ifadə etmək olmaz. Biz 32 ildir bu günü gözləyirdik. Şuşa mənim cavanlığımın xatirəsidir. Şuşanın hər cığırından xatirələrimiz boylanır. Biz bütün ruhumuzla öz torpağımıza bağlıyıq. Bir gün belə Şuşaya qayıtmaq ümidimizi itirmədik. Bəlkə də buna görə, hər kəsin alınmaz adlandırdığı Şuşanı biz geri ala bildik”, deyə o bildirib.

Ömrünün ən gözəl illərini Şuşada yaşadığını söyləyən N. Məhərrəmova nəvələrinin də artıq Şuşada məktəbə gedəcəyini deyir. Balaca nəvəsinin bu il birinci sinifə getdiyini söyləyən həmsöhbətimiz ən böyük arzusunun onların Şuşada böyüməsi, təhsil alması olduğunu söyləyir: ”Mənim övladlarımın ən kiçiyi 3-cü sinifə qədər Şuşada məktəbə gedə bildi. Arzum idi ki, heç olmasa nəvələrim Şuşada böyüsün, təhsil alsın. Sağ olsun, Ali Baş Komandanımız və ordumuz, bizi bu arzumuza çatdırdı. Artıq biz Şuşaya doğru əbədi yola çıxırıq. Şuşaya öz evimizə qayıdırıq. Dünyada bundan böyük sevinc, xöşbəxtlik yoxdur. Şuşa bizim ruhumuzun şəhəridir. Mədəniyyətimizin beşiyidir. Biz öz ata-babalarımızın ruhunun dolaşdığı torpaqlarımıza yenidən dönürük. Artıq onların ruhu şaddır. Çünki, Şuşanın sakinləri ora geri qayıdır. Bu sözün əsl mənasında ”Böyük Qayıdış”dır. Həm də böyük gündür. Çünki, Şuşa Azərbaycan xalqının ən əziz və böyük tarixi olan bir guşəsidir. Şuşa bizim namusumuzdur, qeyrətimizdir. İllərdir əsir qalan Xarı bülbülün, Xanın, Cabbarın, Üzeyirin və başqa şəxsiyyətlərin yurdudur. Mədəniyyətimizin paytaxtıdır. Azərbaycanın çoxəsrlik zəngin mədəniyyətinin, memarlıq və şəhərsalma sənətinin parlaq incisidir. Biz öz incimizə sahib çıxmağa gedirik”.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**

## Mayın 5-də növbəti imtahanlar keçiriləcək

***Dövlət İmtahan Mərkəzi mayın 5-də ümumi (9 illik) orta təhsil səviyyəsi üzrə növbəti imtahanlar keçirəcək.***

DİM-dən ”Unikal”a bildirilib ki, imtahanlar 15 şəhər və rayonda təşkil olunur və 11 943 nəfərin iştirakı nəzərdə tutulur. 2024-cü il mayın 5-də əvvəlki illərin məzunları üçün orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanı;

Müsabiqədə buraxılış imtahanında verdiyi xarici dildən fərqli dil üzrə iştirak etmək istəyən cari ilin məzunları üçün əlavə xarici dil imtahanı;

Müsabiqədə buraxılış imtahanında verdiyi tədris dilindən fərqli dil üzrə iştirak etmək istəyən cari ilin məzunları üçün əlavə tədris dili imtahanı;

Mart və aprel aylarında keçirilmiş buraxılış imtahanlarında müxtəlif səbəblərdən iştirak edə bilməmiş və barəsində Mərkəzə müraciət edilmiş cari ilin IX sinif şagirdləri üçün buraxılış imtahanı;

Eksternat qaydasında IX sinif üzrə yekun attestasiyada iştirak etmək istəyən şəxslər üçün buraxılış imtahanı;

Buraxılış imtahanlarında müxtəlif səbəblərdən iştirak edə bilməmiş və barəsində Mərkəzə müraciət edilmiş əvvəlki illərin IX sinif məzunları üçün buraxılış imtahanı.

İmtahanlarda iştirak edəcək şəxslər “İmtahana buraxılış vərəqəsi”ni DİM-in saytından çap edib götürə bilərlər.

İmtahanlar saat 10:00-da başlanır.

İmtahanların başlanmasına 15 dəqiqə qalmış - saat 09:45-də buraxılış rejimi başa çatır. Bundan sonra gələn iştirakçılar imtahan binasına buraxılmır.

İştirakçıların imtahan binasına rahat şəkildə daxil olması üçün binaya müxtəlif gəlmə vaxtları müəyyən edilib və imtahan iştirakçısının buraxılış vərəqəsində həmin vaxt göstərilib. Ona görə də imtahan binasına buraxılış vərəqəsində qeyd olunan vaxtda gəlmək tövsiyə olunur.

Abituriyentlər (şagirdlər) imtahana aşağıdakı sənədləri gətirməlidirlər:

- İmtahana buraxılış vərəqəsi;
- Şəxsiyyəti təsdiq edən sənədin əsli:

a) Azərbaycan Respublikasının vətəndaşları (16 yaşı tamam olmayan iştirakçılar da daxil olmaqla) şəxsiyyət vəsiqəsini;

b) əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Dövlət Miqrasiya Xidməti tərəfindən verilmiş icazə vəsiqələrini, qaçqın statusu almış xarici vətəndaşlar və onların ailə üzvləri isə qaçqın vəsiqələrini;

- Şəxsiyyət vəsiqəsində şəkli olmayan iştirakçılar digər sənədlərlə yanaşı, təhsil müəssisəsi tərəfindən verilmiş və fotoşəkilləri yapışdırılmış arayışı (arayışa iştirakçının 3x4sm ölçülü şəkli yapışdırılır və şəkil möhürlə təsdiqlənir).

İmtahanlarda 11943 nəfərin iştirakı nəzərdə tutulur. İmtahanda 38 nəfər sağlamlıq imkanları məhdud (gözdən əlil, serebral iflic, eşitmə əngəlli və digər) şagird də iştirak edəcək. Bu şagirdlərin rahat şəkildə imtahan verməsi üçün imtahan binalarında xüsusi zallar ayrılıb, orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə gözdən əlilliyi müəyyən edilmiş şəxslərə isə fərdi nəzarətçilər təyin edilib.

Ümumilikdə imtahanların idarə olunmasına 52 ümumi imtahan rəhbəri, 141 imtahan rəhbəri, 1121 nəzarətçi, 160 buraxılış rejimi əməkdaşı və 52 bina nümayəndəsi ayrılıb.

İmtahanlar Bakı, Şəki, Lənkəran, Gəncə, Sumqayıt, Mingəçevir, Şirvan şəhərlərində, Abşeron, Şəmkir, Bərdə, Sabirabad, Göyçay, Cəlilabad, Xaçmaz rayonlarında və Naxçıvan MR-də təşkil olunur.

14_27 IYUl-QARA.qxd 5/2/2024 8:48 PM Page 13





## Qarabağ və Şərqi Zəngəzurda nə qədər keçmiş məcburi köçkün daimi məskunlaşdırılıb?

***Bu günə qədər ümumilikdə 1727 ailə, yəni 6 min 754 keçmiş məcburi köçkün Qarabağda və Şərqi Zəngəzurda daimi məskunlaşdırılıb.***

"Unikal" xəbər verir ki, bunu Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədr müavini Fuad Hüseynov "Xalq qəzeti"nə müsahibəsində bildirib.

Onun sözlərinə görə, bu günə qədər Laçın şəhərinə 1838 nəfərdən ibarət 537, Füzuliyə 3132 nəfərdən ibarət 822, Ağalı kəndinə 871 nəfərdən ibarət 175, Talış kəndinə 90 nəfərdən ibarət 20 və Zabuxa 823 nəfərdən ibarət 217 ailə köçürülüb.

## Azərbaycanda yeni peyvənd vurulacaq

***Azərbaycan səhiyyə nazirinin müvafiq əmrinə əsasən, profilaktik peyvəndlər təqvimi yenilənib.***

"Unikal" xəbər verir ki, bu barədə Səhiyyə Nazirliyi məlumat yayıb.

Məlumata görə, təqvimə "GDT Hib Hep B İPV" (Heksavaksin) vaksini əlavə olunub.

Təqvim Avropa İttifaqının maliyyə dəstəyi isə Ümumdünya Səhiyyə Təşkilatının həyata keçirdiyi "Vaksinasiyaya dəstək" layihəsi çərçivəsində hazırlanıb.

## Cinayət törətməkdə şübhəli bilinən 58 nəfər saxlanıldı

***Mayın 1-də ölkə ərazisində qeydə alınan 55, əvvəlki dövrlərdən bağlı qalan 18 cinayətin açılması polis əməkdaşları tərəfindən təmin olunub.***

DİN-in mətbuat xidmətindən "Unikal"a verilən məlumata görə, axtarışda olduğuna görə ümumilikdə 81, o cümlədən borclu şəxs qismində axtarışda olan 65 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.

Narkotiklərlə əlaqəli 37, qanunsuz saxlanılan silah-sursatın götürülməsi və aşkarlanması ilə bağlı 13 fakt müəyyən edilib.

Cinayət törətməkdə şübhəli bilinən 58 nəfər saxlanılıb.

## Bu ilin 3 aylıq sənaye statistikası

***Sənaye müəssisələrində və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 2024-cü ilin yanvar-mart aylarında 3933,0 min manatlıq məhsul istehsal edilib.***

Sənaye istehsalı indeksi 95,4 faiz təşkil edib. 2024-cü ilin yanvar-mart aylarında sənaye sahəsində istehsalın və xidmətlərin həcminin 1067,1 min manatı və ya 27,1 faizi dövlət sektorunun, 2865,9 min manatı və ya 72,9 faizi qeyri-dövlət sektorunun payına düşmüşdür.

***Ucar Rayon Statistika İdarəsinin baş məsləhətçisi Emin Qəhrəmanov***

# 2024-cü ilin ilk rübündə Balakəndə iqtisadi və sosial inkişaf göstəriciləri belə olub

***Məhsul istehsalı 2023-cü ilin yanvar-mart ayları ilə müqayisədə ilkin hesablamalara görə 9,9 faiz artaraq 63839,2 min manat təşkil edib. Məhsul istehsalının 37,2 faizi sənaye, 0,8 faizi tikinti, 20,0 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 1,9 faizi nəqliyyat və anbar təsərrüfatı, 0,8 faizi informasiya və rabitə, 39,3 faizi isə ticarət; nəqliyyat vasitələrinin təmiri sahələrində istehsal edilib.***




2024-cü ilin yanvar-mart aylarında sənayedə istehsal olunmuş malların və göstərilmiş xidmətlərin həcmi 23769,1 min manat olmuşdur. Qeyri-dövlət sektorunda istehsalın və xidmətlərin həcmi 20081,3 min manat və sənaye məhsulunun ümumi həcmində xüsusi çəkisi 84,5 faiz olmuşdur. Dövlət bölməsində isə sənaye məhsulu istehsalının həcmi 3687,8 min manat olmaqla sənaye məhsulunun ümumi həcminin 15,5 faizini təşkil etmişdir.

İstehsal edilmiş sənaye məhsulunun və göstərilmiş xidmətlərin 84,5 faizi emal sənayesinin, 14,5 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 1,0 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı müəssisələrinin payına düşür.

2024-cü ilin yanvar-mart aylarında yüklənmiş malların həcmi 20487,4 min manat olmuş, o cümlədən öz istehsalı olan malların həcmi 19960,0 min manat təşkil etmişdir. Bununla yanaşı 2024-cü ilin aprelin 1-i vəziyyətinə sənaye müəssisələrinin anbarlarında öz istehsalı olan hazır məhsul qalığı 287,4 min manat olmuşdur.

Kənd təsərrüfatında yaz-tarla işləri aparılır və 2024-cü ilin yanvar-mart aylarında 1897,0 hektar sahədə və ya 2023-cü ilin eyni dövrü ilə müqayisədə 202,0 hektar və ya 9,6 faiz az yazlıq bitkilərin səpini aparılmışdır.

2024-cü ilin yanvar-mart aylarında diri çəkidə 1097,9 ton ət, 5605,1 ton süd və 2741,0 min ədəd yumurta istehsal olunmuşdur. 2023-cü ilin yanvar-mart ayları ilə müqayisədə ət istehsalı 8,8 ton və ya 0,8 faiz, süd istehsalı 8,1 ton və ya 0,1 faiz, yumurta istehsalı 19,0 min ədəd və ya 0,7 faiz artmışdır.

2024-cü il aprelin 1-i vəziyyətinə 27242 baş iri buynuzlu mal-qara, o cümlədən 13180 baş inək və camış, 36669 baş qoyun və keçi mövcud olmuşdur.

2024-cü ilin birinci rübündə kənd təsərrüfatında məhsul istehsalı 12735,0 min manat olmaqla keçən ilin müvafiq dövrü ilə müqayisədə 0,7 faiz artmışdır.

2024-cü ilin yanvar-mart aylarında bütün maliyyə mənbələri hesabına əsas kapitala yönəldilmiş investisiyaların həcmi 358,6 min manat məbləğində olmuşdur.

Nəqliyyat sektorunda fəaliyyət göstərən müəssisələr və fiziki şəxslər tərəfindən 2024-cü ilin yanvar-mart aylarında 194,0 min ton yük və 1725,0 min sərnişin daşınmışdır. 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə yük daşınması 4,9 faiz, sərnişin daşınması isə 6,8 faiz artmışdır. Yük və sərnişinlərin hamısı avtomobil nəqliyyatı ilə daşınmışdır.

2024-cü ilin yanvar-mart aylarında informasiya və rabitə müəssisələri tərəfindən göstərilmiş xidmətlərin həcmi əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 85,3 faiz artaraq 537,2 min manat olmuşdur.

2024-cü ilin yanvar-mart aylarında pərakəndə ticarət şəbəkəsindən əhaliyə 78392,4 min manatlıq məhsul satılmış, xidmət subyektləri tərəfindən 15548,8 min manatlıq ödənişli xidmət göstərilmişdir. 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə əmtəə dövriyyəsi 1,4 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlərdən əldə olunan gəlir isə 4,6 faiz artmış, ticarət şəbəkəsində 51498,2 min manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 26894,2 min manatlıq qeyri-ərzaq malları satılmışdır.

2024-cü ilin yanvar-fevral aylarında muzdlu işçilərin orta aylıq nominal əməkhaqqı 2023-cü ilin müvafiq dövrünə nisbətən 12,9 faiz artaraq 561,0 manata çatmışdır.

01 aprel 2024-cü il tarixinə rayonun əhalisi ilkin hesablamalara görə 100739 nəfər olmuş, əhalinin sayı ilin əvvəlindən 50 nəfər və ya 0,05 faiz artmışdır.

***Balakən Rayon Statistika İdarəsinin rəisi Fərhad Xəlilov***

# İdmanda doğru bildiyimiz yanlışlar

***Yay yaxınlaşdıqca bir çox insan artıq çəkidən xilas olmaq və ya fit bədənə sahib olmaq üçün idmana üz tutur. Aparılan elmi araşdırmalar bu, müntəzəm məşqin ümumi bədən sağlamlığı ilə yanaşı ürək sağlamlığını əhəmiyyətli dərəcədə dəstəklədiyini göstərir. Amma diqqətli olmaqda fayda var. Çünki bəzi qaydalara diqqət etmədikdə ürəyə fayda verməkdənsə, zərər verə, hətta infarkt riski artıra bilər.***

"Unikal" həmin qaydaları təqdim edir:

**Düzgün idmanı seçin**

Sağlamlığınıza, yaşınıza və sağlamlıq vəziyyətinizə uyğun olmayan idmanlardan çəkinin. Bu meyarlar baxımından sizə ən uyğun olan idman növünü seçmək vacibdir.

**Yavaş başlayın**

Qəfil və intensiv məşqlərə başlamaq ürək xəstəliklərinə və hətta infarkt riskinə səbəb ola bilər. Ona görə də mərhələli proqramın həyata keçirilməsi vacibdir. Bədəninizin yeni məşq proqramına uyğunlaşması üçün ilk həftələrdə qısamüddətli və yüngül məşqlər etməyiniz tövsiyə olunur.



İlk həftədə 10-15 dəqiqəlik məşqlərə başlaya bilərsiniz. Hər həftə məşq müddətini və intensivliyini tədricən artıra bilərsiniz. Xüsusilə sinə, əzələ, baş ağrısı, başgicəllənmə və ya nəfəs darlığı kimi şikayətləriniz varsa dincəlməli və mütləq həkimə müraciət etməlisiniz. Bədəninizin susuz qalmaması üçün bol su içməyə diqqət yetirin.

**Davamlı olun**

Həftədə azı 3-5 gün ən az 30 dəqiqə idman etmək ürək sağlamlığınız üçün idealdır. Müntəzəm idman etmək ürək əzələlərini gücləndirməkdən tutmuş qan təzyiqini salmağa, xolesterini tarazlaşdırmağa və stressi azaltmağa qədər bədənə bir çox faydaları təmin edir. Bəzən heç məşq etməmək, bəzən də həddindən artıq yüklənmənin ürəyə mənfi təsir etdiyi məlumdur. İdmanın gündəlik həyat rejiminə çevrilməsi lazım olduğu qeyd olunur.

***Zərifə Nağıyeva***

14_27 IYUl-QARA.qxd 5/2/2024 8:49 PM Page 14



# İlin sonuna kimi Kəlbəcər, Xocalı, Cəbrayıl və Zəngilana köç olacaq

***Böyük Qayıdışa dair I Dövlət Proqramı tədbirlər planında əks olunan fəaliyyətlər üzrə icra edilir və təbii ki, eyni vaxtda bütün şəhər və kəndləri bərpa etmək mümkün deyil. Bu, zaman tələb edən prosesdir.***

"Unikal" xəbər verir ki, bunu Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədr müavini Fuad Hüseynov rəsmi mətbuata müsahibəsində deyib.

O bildirib ki, qayıdışın coğrafi arealı 20 kənd və qəsəbə, 7 şəhər olmaqla, 27 yaşayış məntəqəsini əhatə edəcək.

"Qürurvericidir ki, tezliklə Vətən müharibəsində qələbəmizin simvoluna çevrilmiş gözəl Şuşamıza, bundan başqa Xocalıya, Cəbrayıla, Kəlbəcərə və Zəngilana da köçürülmə prosesinə start



veriləcək. Bir məqamı da qeyd edim ki, ilin sonuna kimi məskunlaşma bütün işğaldan azad edilmiş rayonlarda başlamış olacaq", - Komitəsinin sədr müavini qeyd edib.

Fuad Hüseynov bildirib ki, keçmiş məcburi köçkünlərin öz doğma yurdlarında daimi məskunlaşdırılması zamanı nəzərə alınan prinsiplərə gəldikdə isə, ölkə rəhbərliyi tərəfindən verilən göstərişə əsasən, ilk növbədə, hər bir yaşayış məntəqəsi üzrə ağır şəraitdə yaşayan - yataqxanalarda, sanatoriyalarda, pansionatlarda, qəzalı vəziyyətdə olan binalarda məskunlaşmış ailələrin köçürülməsi diqqətdə saxlanılır:

"Köçürülməyə hazır olan yaşayış məntəqələri üzrə həmin yerin sakinləri arasında sorğular keçirilir, hər bir ailə ilə fərdi qaydada söhbətlər aparılır, onların qayıdışı ilə bağlı razılaşma protokolu imzalanır. Burada əsas məqsəd planlaşdırmanı daha səmərəli təşkil etməkdir".

# Vüqarın məslək yolu...

***Vüqar Rəfail oğlu Heydərov Vətən qarşısında son borcunu şərəflə verib ölümsüzlüyə qovuşub.***

35 yaşında şəhidlik zirvəsinə ucalmaqla mənalı, şərəfli ömür yolu gələcək nəsillərə örnək olub. Qərinələr keçəcək Vüqarın adı özündə doğma Azərbaycana, dövlətinə, xalqına məhəbbət hissi yaşatmaqla yaddaşlardan silinməz, xoş xatirələr yaşadar. Fəqət, Vətən uğrunda canından keçən hər bir kəs şəhiddir. Bu, ali məqama ucalanlar isə səmanın parlaq günəşinə dönməklə heç zaman ölmürlər.

Əzəl gündən həyatının dəyərini, mənasını Vətənə, xalqa təmənnasız xidmətdə görən Vüqar Heydərov 1988-ci ildə Lənkəran rayonunun Boladi kəndində ziyalı ailəsində dünyaya göz açıb. Uşaqlıqdan düşmənə nifrət bəsləyən Vüqar 2002-ci ildə Cəmşid Naxçıvanski adına hərbi liseydə oxuyub. 2005-ci ildə oranı bitirib və həmin il də Heydər Əliyev adına Ali Hərbi məktəbə qəbul olunub. 2009-cu ildə mükəmməl biliklə ali hərbi məktəbi başa vurub. 1 il təlim-tədris mərkəzində hərbi xidmət keçib. 2010-cu il iyulun 22-dən şəhadətə yüksəldiyi anadək Naxçıvan Muxtar Respublikasında yerləşən müxtəlif hərbi hissələrdə zabit olaraq adına can dediyi Azərbaycanın keşiyində durub. Onun üçün Vətən hər şeydən əziz, üstün olub. Həmçinin bitib-tükənməz hərb sevgisi Vüqara iştirak etdiyi bütün təlimlərdə uğur qazandırıb. O, təmiz ürəkli, vicdanlı, olduqca qeyrətli Azərbaycan oğlu olaraq əsgərlərin, zabitlərin sevimlisinə çevrilib. Xidmət zamanı dəfələrlə düşmənlə üz-üzə gələn Vüqar Vətənə, torpağa məhəbbəti sayəsində sınaqlardan qalıb çıxıb. Mərdliyi, qəhrəmanlığı dillərdə dastana dönüb...

Mayor Vüqar Heydərov 20 sentyabr 2023-cü il tarixində antiterror əməliyyatı zamanı sinəsini irəli verib qartal tək erməni dığalarının üstünə şığıyıb. Düşməni məhv etdikdən sonra özü də qəfil atılan gülləyə tuş gəlib. Doğulduğu Boladi kəndində əbədi məkan tapan igid Vətən sevdalısı xalqına, elinə 2 oğul övladını - Yusif və Mehdini əmanət qoyub .



***Zəfər Orucoğlu, AJB üzvü***

# Bazar günü 1274 nəfər imtahan verəcək

***5 may 2024-cü il tarixində Dövlət İmtahan Mərkəzi tərəfindən rezidenturaya qəbul imtahanının birinci mərhələsi (baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanı, birinci cəhd) keçiriləcək.***

DİM-dən "Unikal"a verilən xəbərə görə, imtahanda 1274 namizəd iştirak edəcək. Onlardan 972 nəfər Azərbaycan, 302 nəfər isə rus bölməsi üzrə imtahan verəcək. Ərizə verənlərin 565 nəfəri oğlan, 709 nəfəri isə qızdır. 277 nəfər cari ilin, 526 nəfər əvvəlki illərin məzunudur. 471 nəfər növbəti illərdə məzun olacaq tələbələrdir. 18 nəfər xarici ölkə vətəndaşıdır.

İmtahan Bakı və Naxçıvan şəhərlərində keçiriləcək. İmtahan saat 10:00-da başlanır və 2 saat 30 dəqiqə davam edəcək. İmtahanın başlanmasına 15 dəqiqə qalmış saat 09:45-də buraxılış rejimi başa çatır. Bundan sonra gələn iştirakçılar imtahan binasına buraxılmır.

İmtahanda iştirak edən namizədlər DİM-in internet saytına daxil olaraq



"İmtahana buraxılış vərəqəsi"ni çap etməlidirlər. Buraxılış vərəqəsi ilə yanaşı onlara "Namizədin yaddaş kitabçası" da təqdim olunur. Burada namizədlərə imtahan prosesi ilə bağlı vacib tövsiyələr, onların əməl etməli olduqları qaydalar və digər zəruri məlumatlar çatdırılır.

Namizədlər imtahana aşağıdakı sənədləri gətirməlidirlər:

- şəxsiyyəti təsdiq edən sənədin əsli;
- "İmtahana buraxılış vərəqəsi".

İmtahan binasına buraxılış vərəqəsində qeyd olunan vaxtda gəlmək lazımdır. İmtahan binasına mobil telefon və digər rabitə vasitələri, elektron cihazlar, kalkulyator, elektron məlumat daşıyıcısı, kitab, dəftər, jurnal, konspekt, məlumat kitabçası, lüğət, cədvəl, çanta və digər yardımçı vəsaitlər gətirmək qadağandır. İştirakçılardan imtahan binasına əlavə əşyaları gətirməməyi xahiş edirik. Bütün bunlar buraxılış rejimi işinin səmərəli təşkilinə və onun vaxtında başa çatdırılmasına mane olur.

İmtahanların keçirilməsi üçün, ümumilikdə 6 imtahan binası, 15 imtahan rəhbəri, 6 ümumi imtahan rəhbəri, 122 nəzarətçi-müəllim, 18 buraxılış rejimi əməkdaşı (mühafizə) və 6 bina nümayəndəsi ayrılıb.



# Ordumuzun tankları şərti düşməni məhv etdi

***Azərbaycan Ordusunun tank bölmələri ilə intensiv döyüş hazırlığı üzrə məşğələlər keçirilir.***

"Unikal" xəbər verir ki, bu barədə Müdafiə Nazirliyi məlumat yayıb. Ümumqoşun təlim poliqonunda keçirilən məşğələlər zamanı ərazidə təbii və süni maneələrin dəf edilməsi, döyüş maşınlarının idarə olunması, şərti düşmən üzərinə dərinlikdən irəliləməklə hücum üzrə çalışmalar yerinə yetirilib.

Həmçinin zirehli texnikanın üzərinə quraşdırılmış silahdan aşkar olunan hədəflərin yerindən və hərəkətdə məhv edilməsi üzrə qarşıya qoyulan tapşırıqlar da icra olunub.

Hərbi qulluqçuların döyüş vərdişlərinin təkmilləşdirilməsi məqsədilə keçirilən məşğələlərdə tankçılarımız yüksək peşəkarlıq nümayiş etdirirlər.

# Kəlbəcər şəhərinin Baş planı təsdiqləndi

***"Kəlbəcər şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı" təsdiqlənib.***

"Unikal"ın xəbərinə görə, Nazirlər Kabineti bu barədə qərar verib. Plan Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin təklifi əsasında hazırlanıb.

Planın detalları hələlik açıqlanmayıb.

# Ucarın tikinti, nəqliyyat və rabitənin inkişaf statistikası

***2024-cü ilin yanvar-mart aylarında müəssisə və təşkilatlar tərəfindən rayonun iqtisadi və sosial sahələrinin inkişafı üçün əsas kapitala bütün maliyyə mənbələrindən 189,7 min manat investisiya yönəldilmişdir.***

Əsas kapitala yönəldilmiş investisiyanın 103,0 min manatı və ya 54,3 faizi dövlət, 86,7 min manatı və ya 45,7 faizi isə qeyri-dövlət sektorunun payına düşmüşdür.

2024-cü ilin yanvar-mart aylarında əsas kapitala yönəldilmiş investisiyanın 183,0 min manatını və ya 96,5 faizini tikinti-quraşdırma işləri təşkil etmişdir. Tikinti-quraşdırma işlərinin 100,6 min manatı və ya 55,0 faizi dövlət, 82,4 min manatı və ya 45,0 faizi, qeyri-dövlət müəssisələrinin payına düşmüşdür.

2024-cü ilin yanvar-mart aylarında nəqliyyat sektorunda fəaliyyət göstərən müəssisələr və fərdi sahibkarlar tərəfindən əhaliyə 890,2 min manatlıq xidmət göstərilmiş və 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 9,6 faiz çox olmuşdur. Avtomobil nəqliyyatı ilə 2024-cü ilin yanvar-mart aylarında 1475 min nəfər sərnişin, 453 min ton yük daşınmışdır.

2024-cü ilin yanvar-mart aylarında informasiya və rabitə sektorunda təsərrüfat subyektlərinə və əhaliyə 187,1 min manatlıq xidmət göstərilmiş, bu da 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 4,2 faiz və ya 8,3 min manat çox olmuşdur.

***Ucar Rayon Statistika idarəsinin aparıcı məsləhətçisi Cəlil Vəlimməmmədov***

14_27 IYUl-QARA.qxd 5/2/2024 8:49 PM Page 15



# Türkiyənin 8 vilayətində əməliyyat keçirildi - Saxlanılanlar var




***Türkiyənin Bursa və digər 7 vilayətində mütəşəkkil cinayətkar qrupa qarşı əməliyyat keçirilib.***

"Unikal" xəbər verir ki, bu barədə ölkənin daxili işlər naziri Ali Yerlikaya "X"da məlumat yayıb.

Onun sözlərinə görə, həyata keçirilən əməliyyat nəticəsində mütəşəkkil cinayətkar qrupun fəaliyyətinin qarşısı alınıb, 42 nəfər saxlanılıb.

# Ukrayna ağır yaralanan hərbçiləri döyüş meydanında tərk edir

***Ukrayna Silahlı Qüvvələri tibbi xidmətin dağılması səbəbindən yaralılarını döyüş meydanından daşıya bilmir.***

"Unikal" xəbər verir ki, bunu Pentaqonun keçmiş müşaviri, istefada olan polkovnik Duqlas Makqreqor yerli KİV-ə müsahibəsində deyib.

"Ağır yaralılar döyüş meydanında ölümə buraxılır. Onları çıxara bilmirlər", - o, ifadə edib.

Makqreqorun sözlərinə görə, Ukrayna Silahlı Qüvvələrində yaralıların vəziyyəti o qədər çıxılmazdır ki, onlar təcili tibbi yardım stansiyasına çatmaq üçün evakuasiya maşınlarının sürücülərinə pul ödəməyə məcburdurlar.

***Gülayə Mecid***

# İran Britaniyanın müdafiə nazirinə sanksiya tətbiq etdi

***İran İsrailin Fələstindəki hərəkətlərinə dəstək verdiyi üçün Britaniyanın müdafiə naziri Qrant Şappsa sanksiyalar tətbiq edib.***

"Unikal" xəbər verir ki, bu barədə İran Xarici İşlər Nazirliyi açıqlama yayıb.

Bundan əlavə, krallığın ali hərbi komandanlığına, Kiprdəki Akrotiridəki Britaniya hərbi bazasına və üç şirkətə də məhdidiyyətlər tətbiq edilib.

Sanksiyalar sırasına adları çəkilən şəxslərə viza verilməsinə qadağa, İran İslam Respublikasına girişə qadağa qoyulması, bank hesablarının bloklanması, İranın yurisdiksiyasındakı ərazidəki əmlak və aktivlərinin müsadirə edilməsi daxildir.

***Ağarza Elçinoğlu***

# Rusiyada nazir müavini həbs edildi

***Rusiyanın Sverdlovsk vilayətinin energetika və mənzil-kommunal təsərrüfat nazirinin müavini Andrey Kislitsın xüsusilə külli miqdarda rüşvət almaqda şübhəli bilinərək həbs edilib.***

"Unikal" xəbər verit ki, bu barədə Leninski Rayon Məhkəməsi məlumat yayıb.

Bildirilir ki, aprelin 28-də məhkəmə müstəntiqin Kislitsın barəsində həbs qətimkan tədbirinin seçilməsi ilə bağlı vəsatətini təmin edib.

O, ötən gün rüşvət almaqda şübhəli bilinərək saxlanılıb.

***Gülayə Mecid***

# "Tezliklə Odessa azad olacaq" - Zaxarova

***Tezliklə Odessa "Banderanın boyunduruğundan" azad olacaq və 2014-cü ildə Həmkarlar İttifaqları Evində baş vermiş faciənin təşkilatçıları layiqli cəzalarını alacaqlar.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bildirib.

Zaxarova Həmkarlar İttifaqları Evində baş verən yanğının 10-cu ildönümü ilə bağlı şərhində deyib: "Əminik ki, müasir Banderaitlərin boyunduruğundan atılan Odessanın yenidən həqiqətən azad şəhərə çevriləcəyi gün uzaqda deyil".

Diplomatın sözlərinə görə, 2014-cü ilin mayında baş verənlərin günahkarları ədalətli şəkildə cəzalandırılacaqlar.

***Ağarza Elçinoğlu***

# Paşinyan Azərbaycanla sərhədə hasar çəkməyi təklif etdi

***"Söhbət azərbaycanlıların zahiri problemidirsə, Kirantsda ağac əkə, hasar çəkə bilərik".***



"Unikal" xəbər verir ki, bunu Ermənistanın baş naziri Nikol Paşinyan deyib.

O, müsahibəsində Qazaxın 4 kəndinin Azərbaycana qaytarılmasına etiraz edən Kirants sakinlərinə bildirib ki, cavabı olmayan suallar çoxdur: "Biz bunu xəritədə görürük, amma yenə də digərləri ilə yanaşı, Voskepar və Berkaberin təcrübəsi göstərdi ki, o koordinata malik bir yerə getdiyiniz zaman məlum olur ki, sizin o yer haqqında fikirləriniz yerdən bir az fərqlidir, çünki xəritələr və peyk fotoşəkilləri nə qədər dəqiq olsa da, yerdə bunu görmək çox fərqlidir.

Üstəlik, burada həm fürsət, həm də risk var. Təkrar etmək istəyirəm: sərhəd bir az bu tərəfdə, bir az o tərəfdə ola bilər. Cavabımı tərtib etməzdən əvvəl bunu aydınlaşdırmağa çalışdım - əgər görünürlük problemdirsə, dedim: ağac əkə bilərik, hasar çəkə bilərik. Amma başa düşməliyik...".

Baş nazirin sözlərinə görə, təkcə Kirantsın sərhədi demarkasiya edilmir, Ermənistan sərhədi müəyyənləşdirilir: "Kirants sektorunda demarkasiyaya məruz qalan 11 nöqtəmiz var. Burada böyük bir hissədə Kirants xalqı da sərhədə görə mübahisə etmir. Yaxın günlərdə mübahisəli olmayan hissənin sərhədlərinin müəyyənləşdirilməsinə başlayacağıq, qalan 3 nöqtənin həlli yollarını axtaracağıq. Kirantsın sərhədi yoxdur, Kirantsın qonşu kəndlərə qədər sərhədi var. Biz o ərazidə demarkasiya işlərinə başlayacağıq və bir şey elan edənə qədər müzakirə olunan 3-4 bənd üzərində işləməyə davam edəcəyik".

***Ağarza Elçinoğlu***

# Ermənistan MN demarkasiya olunmuş ərazilərdən geri çəkiləcək

***"Müdafiə Nazirliyi artıq sərhədi müəyyən edilmiş ərazilərdə xidmət göstərməyəcək".***



"Unikal" xəbər verir ki, bunu Ermənistanın baş naziri Nikol Paşinyan deyib.

Paşinyan qeyd edib ki, sərhəd qoşunlarının mandatı Ermənistanın sərhədini qorumaqdır: "Sərhədin mühafizəsi məsələsi tam şəkildə MTN-in sərhəd mühafizəsi qoşunları tərəfindən həyata keçiriləcək. Yəni bizim o ərazidə, sərhəddə Müdafiə Nazirliyinin mövqeləri olmayacaq".

Onun sözlərinə görə, əsgərin üzərinə çox yük qoyulur: "Ordumuza və əsgərlərimizə qarşı haqsızlıq edirik. Diplomatiyanın yükünü, iqtisadiyyatın yükünü, təhlükəsizlik yükünü əsgərin üzərinə qoyuruq, əsgərin yükünü də əsgərin üzərinə qoyuruq və deyirik: əziz əsgər, gör nə edirsən. Əslində, əsgər və ordu təhlükəsizliyin sonuncu amilidir.

Ordumuzun ən böyük problemlərindən biri də odur ki, əsgərlərimiz xidmətinin çox hissəsini səngərdə keçirir, hətta əsgər kimi lazımınca məşq edə bilmirlər".

***Ağarza Elçinoğlu***

# Dörd ildən sonra COVID məhdudiyyətləri ləğv edildi

***Cənubi Koreya səlahiyyətliləri ilk COVID-19 hadisəsi təsdiqləndikdən sonra ölkədə dörd ildən çox müddət ərzində tətbiq olunan son karantin məhdudiyyətlərini ləğv edib.***



"Unikal" xəbər verir ki, bu barədə "Yonhap" məlumat yayıb.

Bildirilir ki, ötən gün ölkə "COVID-19 ilə bağlı böhran səviyyəsini" ən aşağı səviyyəsinə - "narahatlıq" səviyyəsinə endirib, bununla da C.Koreya pandemiyadan əvvəlki normal vəziyyətinə tam qayıdıb.

Bundan sonra Cənubi Koreyada tibb müəssisələrində maska taxmaq lazım deyil və koronavirus üçün testdən keçmək tövsiyəyə çevrilib.

Həmçinin, hökumət artıq COVID-19 testi və ya xəstəxanaya yerləşdirmə xərclərini tam ödəməyəcək və xəstələr antiviral həbləri özləri ödəməli olacaqlar.

Pulsuz peyvənd proqramı 2023-2024-cü il mövsümünə qədər mövcud olacaq. Qeyd olunur ki, hakimiyyət bu qərarın ölkədə ilk koronavirus hadisəsini 2020-ci il yanvarın 20-də elan etməsindən dörd ildən çox vaxt keçdikdən sonra verilib.

***Gülayə Mecid***

# Şəhidlərin xatirəsinə həsr olunmuş futbol turniri keçirilib

***44 günlük haqq savaşımızda qəhrəmanlıq göstərərək qanı bahasına xalqa qələbə sevinci yaşadan Vətən şəhidləri heç vaxt unudulmur, hər zaman böyük ehtiramla yad olunurlar.***



Cəlilabadda isə bu günlər şəhidlərin xatirəsinə həsr olunmuş futbol turnirinə yekun vurulub.

Lənkəran-Astara Regional Gənclər və İdman İdarəsinin təşkilatçılığı sayəsində şəhidlərin xatirəsinə həsr olunmuş futbol üzrə yarış rayonun Gülməmmədli kənd meydançasında keçirilib.

14 kənd komandasının qatıldığı turnirin final oyununda meydança sahibləri Üçtəpə komandası ilə qarşı-qarşıya gəliblər. Gülməmmədlilər daha yaxşı oyun nümayiş edərək rəqib komanda üzərində 2-1 hesablı qələbə qazanıblar.

Qalib gələn komandalar Lənkəran-Astara Regional Gənclər İdman İdarəsinin kubok, diplom və medalları ilə təltif olunub.

***Zəfər Orucoğlu, AJB üzvü***

# Çempionlar Liqasında ikinci yarımfinal: almanlar fransızları məğlub etdi

***Ötən axşam UEFA Çempionlar Liqasında yarımfinalın ikinci oyunu keçirilib.***



Dortmund "Borussiya"sı PSJ-ni qəbul edib. Matç meydan sahiblərinin 1:0 hesablı qələbəsi ilə başa çatıb. Görüşdəki yeganə qolu isə 36-cı dəqiqədə Nikolas Fülkruq vurub.

Xatırladaq ki, yarımfinalın ilk matçında "Bavariya" (Almaniya) "Real"la (İspaniya) heç-heçə edib - 2:2.

Qeyd edək ki, yarımfinalın cavab görüşləri mayın 7-8-də olacaq.

# "Qarabağ" Azərbaycan çempionatında ayrı dünya kimidir"

***"Sabah"ın baş məşqçisi Krunoslav Renduliç Xorvatiya mətbuatına danışıb.***

"Qafqazinfo" xəbər verir ki, təcrübəli mütəxəssis Azərbaycan Premyer Liqasında "Qarabağ"ın digər komandalardan çox üstün olduğunu bildirib: "Qarabağ" çempionatda ayrı dünya kimidir. Onlar ən yaxşıdır, rəqabətdən də kənardırlar. Amma biz bu komandanı məğlub edə bilmişdik. "Qarabağ"la matçda qolla nəticələnən iki zərbə ilə meydanı tərk edirsənsə, demək ki, yaxşı oynamısan. Qalan komandalar onlardan geri qalır. Lakin asan matç yoxdur".



## "Borussiya" Hummelslə bağlı qərar verdi

***Dortmund "Borussiya"sının rəhbərliyi komandanın mərkəz müdafiəçisi Mats Hummelslə bağlı qərar verib.***

QOL.az insayder Fabrizio Romanonun sosial şəbəkə hesablarına istinadən xəbər verir ki, Almaniya klubu 35 yaşlı oyunçu ilə müqavilənin uzadılmasında maraqlıdır. "Borussiya" rəhbərliyi müdafiəçinin oyunundan razı qalıb, onun komandada qalmasını istəyir.

Tərəflər arasında mövcud müqavilə bu mövsümün sonunda başa çatır.

Qeyd edək ki, Hummels bu mövsüm Bundesliqada 24 oyuna çıxıb, 3 qol vurub.

## "Yuventus" futbolçusuna 7,5 milyonluq müqavilə təklif etdi



***"Yuventus" futbolçusu Adrian Rabyo ilə yeni müqavilə imzalamağa hazırlaşır.***

QOL.az xəbər verir ki, bu barədə "La Gazzetta dello Sport" məlumat yayıb.

"Qoca sinyora"nın rəhbərliyi 29 yaşlı yarımmüdafiəçiyə təxminən 7,5 milyon avroluq məvaciblə 1 illik müqavilə təklif edib. Rabyo isə klubdan ən az iki illik müqavilə istəyir. Bildirilir ki, "Yuventus" futbolçu ilə anlaşmağa hazırdır.

Tərəflərin hazırkı sözləşməsi isə cari mövsümün sonuna kimidir.

Qeyd edək ki, Rabyo cari mövsümdə 31 oyun keçirib, 4 qol vurub və 3 qolun ötürməsini verib.

# Marselonun oğlu "Real"la müqavilə imzaladı

***"Real"ın və Braziliya millisinin əfsanəvi futbolçusu Marselonun oğlu Entso Alveş atasının sabiq klubu ilə müqavilə imzalayıb.***



Bu barədə Marselo özü instaqram hesabında paylaşım edib.

O, oğlunu təbrik edərək bu sözləri yazıb: "Oğlumu daha bir məqsədə nail olması münasibətilə təbrik edirəm! Sevinc, iş və məsuliyyət".

Qeyd edək ki, Marselo 2007-2022-ci illərdə "Real"da çıxış edib.

# Klublar Komitəsinin növbəti iclası keçirildi

***Klublar Komitəsinin növbəti iclası keçirilib.***

"Unikal" AFFA-nın saytına istinadən xəbər verir ki, toplantıda AFFA-nın icraçı vitse-prezidenti Sərxan Hacıyev, PFL-in texniki-idman direktoru Elgiz Abbasov və Misli Premyer Liqası klublarının nümayəndələri iştirak ediblər.

İclasda klubların 2024/2025 mövsümü ilə bağlı təklifləri müzakirə olunub.

# "Beşiktaş" Levandovskinin transferi üçün fürsət axtarır



***"Beşiktaş" "Barselona"nın hücumçusu Robert Levandovskini almaq istəyir.***

"Qafqazinfo" Türkiyə mətbuatına istinadən xəbər verir ki, İstanbul təmsilçisinin prezidenti Hasan Arat fürsət yaransa, yaxın münasibətlərindən istifadə edəcəyini bildirib.

Maddi cəhətdən çətin transfer kimi görünsə də, "Beşiktaş"ın bunun üzərində çalışacağı vurğulanıb.

Qeyd edək ki, klub rəsmisi Hasan Arat bundan öncəki Ernest Muçi transferində Polşa prezidenti Andrey Dudadan dəstək almışdı.

# Azərbaycan millisinin sabiq üzvü "Əl-İttihad"la müqavilə bağladı

***Futzal üzrə Azərbaycan millisinin sabiq üzvü Conatan Batonun yeni komandası məlum olub.***



QOL.az xəbər verir ki, braziliyalı futzalçı karyerasını Səudiyyə Ərəbistanında davam etdirəcək. O, "Əl-İttihad"la bir illik müqavilə imzalayıb. Bu barədə klubun mətbuat xidməti məlumat yayıb.

Baton son olaraq Braziliyada "Sport Resife" klubunda oynayıb.

Qeyd edək ki, Conatan Baton 2022-ci ildə Azərbaycan millisində çıxış edib.

# Azərbaycanın U-17 millisi Belarusla üz-üzə

***17 yaşadək qadın futbolçulardan ibarət Azərbaycan milli komandası Belarusun paytaxtı Minskdə təşkil olunan UEFA İnkişaf Turnirində bu gün ilk oyununu keçirəcək.***

"Unikal" xəbər verir ki, milli Belarusun müvafiq yaş qrupundan ibarət komandası ilə qarşılaşacaq. ABFF Təlim-Məşq Mərkəzində oynanılacaq görüş Bakı vaxtı ilə saat 19:00-da başlayacaq.

Qeyd edək ki, U-17 turnir çərçivəsində mayın 4-də, Bakı vaxtı ilə saat 13:00-da Qazaxıstanla, 7-də isə saat 12:00-da Türkiyə ilə üz-üzə gələcək.